QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 058 (5530) 28 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**




# Azərbaycan seçicisi İlham Əliyevə alternativ görmür!



5

**Ərtuğrul Soysal: Azərbaycan xalqı azad şəkildə öz seçimini edəcək**



14

**"Xaricdəki muzdlu qrup özünü Azərbaycanın düşmənlərinə könüllü surətdə təslim edib"**



5

**MSK rəsmisi: "MSK namizədlərə bərabər şərait yaradıb"**



# Bakıda Bona Dea Beynəlxalq Hospitalının açılışı olub

## *Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib*

**Martın 27-də Bakının Nizami rayonu ərazisində Bona Dea Beynəlxalq Hospitalının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.**



Bona Dea Beynəlxalq Hospitalının baş icraçı direktoru Faiq Əliyev və baş həkim Musa Abbasov dövlətimizin başçısına və birinci xanıma bu tibb müəssisəsi barədə məlumat verdilər. Bildirildi ki, hospital tibbi avadanlığına və texniki təchizatına görə dünyada bu sahədə ən müasir standartlara cavab verən az sayda müalicə ocaqlarından biridir.

Azərbaycan Prezidenti hospitalın rəmzi açılışını bildirən lenti kəsdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hospitalda yaradılan şəraitlə tanış oldular.



Məlumat verildi ki, bina stasionar və diaqnostik hissələrdən ibarətdir. Stasionar hissə yeddimərtəbəli, diaqnostik hissə isə dördmərtəbəlidir. Hospitalda ürək-damar cərrahiyyəsi, invaziv-kardiologiya, mama-ginekologiya, neonatologiya, pediatriya, təcili tibbi yardım, reanimasiya, süni mayalanma, ümumi cərrahiyyə, ortopediya-travmatologiya, neyrocərrahiyyə, qulaq, burun və boğaz xəstəlikləri, göz xəstəlikləri, urologiya, anesteziologiya, daxili xəstəliklər, qastroenterologiya, nevrologiya, şüa diaqnostikası, tibbi laboratoriyalar, onkologiya, stomatologiya, qan bankı, fizioterapiya-reabilitasiya, mərkəzi sterilizasiya kimi bütün əsas tibbi xidmət sahələri fəaliyyət göstərəcək. Hospital 206 çarpayılıqdır. Təcili tibbi yardım şöbəsi isə 12 yerlikdir.

Dövlətimizin başçısı və xanımı burada çalışan xarici həkimlərlə görüşdülər, onlarla söhbət etdilər.

Hospitalda ümumilikdə 850 nəfərdən ibarət tibbi heyətin işləyəcəyi nəzərdə tutulur. Onlardan 22 həkim və 30 orta tibb heyəti Avropadan dəvət olunmuş yüksək ixtisaslı mütəxəssislərdir. Bu mütəxəssislər dünyada öz sahələri üzrə məşhur olan tanınmış tibb işçiləridir. Burada çalışan tibb mütəxəssisləri arasında ABŞ, Kanada, Avstraliya, Almaniya, İtaliya, Fransa, Belçika, Niderland, Xorvatiya, Serbiya, Yunanıstan, İspaniyadan olan yüksək peşəkar həkimlər var.



Pediatriya və neonatologiya şöbəsində azyaşlıların müalicəsi üçün hər cür şərait yaradılıb. Burada ümumi pediatriya, genetik konsultasiya, pediatrik nevrologiya, kardiologiya və cərrahiyyə xidmətləri göstəriləcək. Şöbədə, eyni zamanda, qabaqcıl laparoskopik prosedurlar da icra olunacaq.

Hospitalın şüa diaqnostika-radiologiya şöbəsi də ən müasir tibbi avadanlıqla təchiz olunub. Rentgen, MRT, kompüter tomoqrafiya və ultrasəs müayinəsi avadanlığının quraşdırıldığı şöbə çoxmetodlu diaqnostik və müdaxiləvi vizualizasiya xidmətlərini təklif edir. Burada xəstələrə rəqəmsal radioqrafiya, rəqəmsal flüoroskopiya və digər xidmətlər də göstəriləcək.

Diqqətə çatdırıldı ki, müəssisənin kliniki laboratoriya şöbəsi bütün xəstələri həftənin və sutkanın istənilən vaxtı hərtərəfli müayinələr və qan bankı xidmətləri ilə təmin edir. Burada müxtəlif laborator müayinələr aparmaq üçün dünyanın aparıcı şirkətlərinin istehsalı olan və ən müasir standartlara cavab verən avadanlıq quraşdırılıb. Bu avadanlıq laborator müayinələri yüksək keyfiyyət və dəqiqliklə, həmçinin qısa müddətdə icra etməyə imkan yaradır. Laboratoriyanın məlumat sistemi xəstəxananın məlumat sistemi ilə əlaqəlidir. Kliniki kimyəvi laboratoriyada tamamilə avtomatlaşdırılmış nəzarət sistemi mövcuddur.

Son illərdə ölkəmizdə həyata keçirilən dövlət siyasətində səhiyyə sisteminin təkmilləşdirilməsi və inkişafı əsas yerlərdən birini tutur. Ən mühüm məqamlardan biri odur ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlətimizin başçısının daim diqqət və nəzarətindədir. Vətəndaşların məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı çox mühüm işlər görülür.

Bu gün Azərbaycanda səhiyyənin inkişafına, bu sahədə əsaslı islahatların aparılmasına Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun dəstəyi ilə ölkəmizdə çoxlu sayda tibb ocaqları inşa olunub, mövcudları isə müasir səviyyədə yenidən qurulub. Bu layihələrin icrası zamanı səhiyyə müəssisələri dünyanın aparıcı şirkətlərinin müasir tibbi avadanlığı ilə təchiz olunur.

Bildirildi ki, Bona Dea Beynəlxalq Hospitalında helikopterlərin enməsi üçün meydança da yaradılıb.

Hospitalın ən müasir tələblərə cavab verən konfrans zalında müxtəlif toplantılar, iclas, görüş, müşavirə və digər tədbirlər təşkil etmək, həmçinin peşəkar həkimlərin gənc mütəxəssislərə təlimlər keçmələri üçün də hər cür şərait mövcuddur.

**Ardı Səh. 3**

# Bakıda Bona Dea Beynəlxalq Hospitalının açılışı olub

## *Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib*

Əvvəli Səh. 2

Ümumi tutumu 145 yerlik olan bu zalda cərrahi əməliyyatları birbaşa izləmək mümkündür. Dövlətimizin başçısı konfrans zalında hospitalda çalışan xarici həkimlərlə söhbət etdi.

Prezident İlham ƏLİYEV: Siz burada güclü tibb mərkəzi qurmağa kömək göstərirsiniz. Sizi Bakıda görməyə çox şadam. İndi bizim yüksək səviyyəli avadanlığımız və həkimlərimiz var. Bizə lazım olan məhz budur - avadanlıq və tibbi xidmət. Mənə məlumat verilib ki, siz regionda, düşünürəm, ən yaxşı tibb mərkəzlərindən birini, bəlkə də ən yaxşısını yaratmağa kömək etmək üçün xəstəxana ilə sıx şəkildə işləyirsiniz.






Azərbaycan Prezidentinə və birinci xanıma məlumat verildi ki, palatalarda xəstələrin müalicəsinin yüksək səviyyədə təşkili üçün bütün zəruri şərait yaradılıb. Tibb müəssisəsinin qarşısına qoyduğu əsas məqsədlərdən biri də xəstələri səhiyyənin yüksək standartları ilə təmin etməklə yanaşı, müalicənin bütün mərhələləri üzrə innovasiyaların tətbiqidir. Bu məqsədlə burada quraşdırılan və İKT-nin yeniliklərinə əsaslanan qurğular xəstələrin müalicəsinin yüksək səviyyədə təmin olunmasına imkan verir.

Bona Dea Beynəlxalq Hospitalında yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı və birinci xanım tibb ocağının kollektivi ilə görüşdülər. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, xəstəxana çox gözəl təəssürat bağışlayır, həm xarici görünüşü, həm də daxili tərtibatı ən yüksək səviyyədədir. Burada ən müasir avadanlıq quraşdırılıb. Əminəm ki, xəstəxanada vətəndaşlara çox yüksək tibbi xidmət göstəriləcək:

"Mən xəstəxana ilə tanış olarkən görürəm ki, çox böyük işlər görülüb. Bütün işlər ən yüksək səviyyədə təşkil edilib. Bu xəstəxana xarici mütəxəssislərin dəstəyi ilə ərsəyə gəlib. Əminəm ki, burada çalışan həkimlər, tibbi heyət xəstələrə yüksək xidmət göstərəcəklər. Mənə verilən məlumata görə, burada 800-dən çox iş yeri yaradılır. Həkimlər, tibbi heyət üçün burada gözəl şərait yaradılıb.

Bu xəstəxananın açılması ölkəmizin ümumi inkişafının göstəricisidir. Ancaq sürətli inkişaf edən ölkələrdə belə gözəl tibb ocaqları yaradılır. Hesab edirəm ki, bu xəstəxana nəinki Azərbaycanın, regionun ən qabaqcıl xəstəxanalarından biri olacaq, bəlkə də birincisi olacaq. Ümid edirəm ki, gün gələcək və turistlər Azərbaycana həm də tibbi xidmət almaq üçün gələcəklər. Yəni, bu xəstəxanada yaradılan şərait belə imkanları təmin edir. Burada Azərbaycan vətəndaşlarına yüksək tibbi xidmət göstəriləcək. Ölkəmizə gələn qonaqlar da, əminəm ki, bu imkanlardan istifadə edəcəklər.

Son illərdə Azərbaycanda 600-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir edilib. Biz səhiyyə sisteminin maddi-texniki bazasını böyük dərəcədə gücləndirə bilmişik. Təkcə bu il altı şəhərdə yeni xəstəxana tikiləcək. Beləliklə, Azərbaycanın hər bir şəhərində ən yüksək tibbi şərait yaradılır. Altı yüzdən çox xəstəxananın, tibb müəssisəsinin yaradılması, əlbəttə ki, böyük vəsait tələb edir. Azərbaycan dövləti bu vəsaiti ayırır.

Səhiyyə sisteminin təkmilləşdirilməsi bizim üçün prioritet məsələdir. Çünki insan sağlamlığı hər bir cəmiyyət, hər bir dövlət üçün əsas məsələdir. Son illər ərzində görülmüş işlər nəticəsində insanların ömrünün uzunluğu artır və bu, gözəl göstəricidir. Bu gün Azərbaycanda istənilən xəstəlik müalicə oluna və onun diaqnostikası aparıla bilər. Yəni, diaqnostik müayinə, müalicə - bütün bunlar kompleks şəkildə təmin edilir. Bir məsələni də xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm. Bir neçə ildir ki, Azərbaycanda dövlət tərəfindən pulsuz tibbi müayinə həyata keçirilir. Hər il beş milyon Azərbaycan vətəndaşı bu xidmətdən istifadə edir. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə bu məsələ öz həllini tapmağa başlamışdır. Hazırda növbəti tibbi müayinə davam edir.

Beləliklə, Azərbaycanda sosial sahənin əsas istiqaməti olan səhiyyənin inkişafı üçün çox böyük işlər görülür. Xəstəxanalar tikilir, avadanlıq ən müasir standartlara cavab verir, tibbi xidmətin səviyyəsi artır və belə gözəl əsərlər yaradılır. Həmçinin bu xəstəxanada müalicə işində xarici mütəxəssislər də iştirak edəcəklər."

Daha sonra Bona Dea Beynəlxalq Hospitalının idarə heyətinin üzvü Herviq Flirakers çıxış edərək fikirlərini bildirib: Siz ən müasir mərkəz, analoqu olmayan avadanlıq gördünüz. Lakin biz, həmçinin xəstəxanada fəaliyyət göstərmək üçün ən müasir və analoqu olmayan komanda yaradırıq. Bizim müxtəlif akademik institutlar və sənaye tərəfdaşlarımızla beynəlxalq əməkdaşlığımız sayəsində ən yüksək səviyyəli səhiyyə xidmətini Bakıya gətirə biləcəyik. Biz, həmçinin yeni tibbi texnologiyalar təqdim edə biləcəyik. Biz Sizə təminat veririk ki, bütün bunlar Azərbaycan xalqının sağlamlığına xidmət edəcək. Biz komanda olaraq Sizə təminat veririk.

X X X

Sonra xatirə şəkli çəkdirildi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hospitalın təcili tibbi yardım şöbəsi ilə də tanış oldular. Məlumat verildi ki, təcili tibbi yardım şöbəsi də ən müasir səviyyədə qurulub. Şöbə xəstələrin rahat və təcili daşınmasına imkan verən nəqliyyat vasitələri ilə təmin edilib. Təcili tibbi yardım şöbəsi Azərbaycanda ilk dəfə olaraq "Mercedes-Benz" markalı ən yeni model iki reanimobil və bir transporter avtomobili ilə təchiz edilib. Azərbaycanın istənilən regionunda operativ və fasiləsiz təcili tibbi yardım göstərmək üçün briqada qısa müddət ərzində özünü çağırış yerinə çatdırmaq iqtidarındadır.

Hospitalla tanış olan dövlətimizin başçısı və birinci xanım tibb ocağının kollektivinə uğurlar arzuladılar.

### Sərəncam: Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlıda modul tipli məktəblər quraşdırılacaq

Prezident İlham Əliyev martın 27-də "Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında cəmi 824 şagird yerlik modul tipli 12 məktəbin quraşdırılması məqsədilə Prezidentin 2018-ci il 22 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 4 milyon 172 min manatı Təhsil Nazirliyinə ayrılıb. Sərəncama əsasən Biləsuvarın Muğankənd, Neftçalanın Mirzəqurbanlı, Qaraqaşlı, Aşağı Surra, Xoltəzəkənd, Xolqaraqaşlı, Qazaxbərəsi, Pirəbbə, İmişlinin Muradxanlı, Beyləqanın Əhmədli və Gödəklər kənd məktəbləri, həmçinin Saatlı şəhər 1 nömrəli ümumi orta məktəb üçün modul tipli binalar quraşdırılacaq.




# Azərbaycan seçicisi İlham Əliyevə alternativ görmür!




***"ELS-Müstəqil Araşdırmalar Mərkəzi" İctimai Birliyi 2018-ci il Prezident seçkiləri ərəfəsində ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi durumun qiymətləndirilməsi, seçici fəallığı, aktual məsələlərə əhalinin münasibətinin müəyyənləşdirilməsi məqsədilə cari ilin fevral-mart aylarında ölkənin 68 rayonunda (Naxçıvan MR-nın ərazisi və işğal olunmuş rayonlar istisna olunmaqla) 1580 respondentin rəy sorğusunu keçirib. Respondentlərin evlərində şəxsi müsahibə üsulu ilə keçirilən rəy sorğusu 18 və yuxarı yaş əhalini əhatə etmişdir. Sorğu xüsusi hazırlıq kursunu keçmiş intervüerlər qrupu tərəfindən aparılmışdır. Yaşayış məntəqələrinin seçimi çoxpilləli stratifikasiya edilmiş təsadüfi ərazi seçimi üsulu ilə aparılmış və rayonların bərabər əhatə olunması təmin edilmişdir. SİA-nın verdiyi məlumata görə, rəy sorğusunun nəticələrinin təqdimatında İctimai Birliyin rəhbəri İradə Yaqubova bildirib ki, sorğunun əhatə etdiyi yaşayış məntəqələrinin 50,4%-ni şəhər, 6,2%-ni qəsəbələr, 43,4%-ni isə kəndlər təşkil edib. Respondentlərin cins və yaş üzrə seçimi ölkə üzrə mövcud statistik məlumat bazasına uyğun aparılmışdır.***

Onun sözlərinə görə, sorğuda iştirak edən respondentlərin 49,4%-ni kişilər, 50,6%-ni isə qadınlar təşkil edib. Yaş kateqoriyalarına görə respondentlərin 28,7%-i 18-29 yaş, 22,3%-i 30-39 yaş, 18,8%-i 40-49 yaş, 16,8%-i 50-59 yaş, 13,4%-i isə 60 və ondan yuxarı yaş kateqoriyalarına aid olmuşlar. Ailə vəziyyətlərinə görə onların 73,3%-i evli, 19,9%-i subay, 5,2%-i dul,1,6%-i isə boşananlar olub. Rəyi soruşulanların yarısından çoxu, yəni 48,3%-i orta təhsilli, 20,7%-i orta ixtisas təhsilli, 4,2%-i natamam ali təhsilli, 20,5%-i ali təhsilli, 6,3%-i isə tam orta təhsili olmayanlardır. Məşğulluqlarına görə respondentlərin 17,3%-i dövlət sektorunda, 21,7%-i özəl sektorda, 15,2%-i özünə işləyən, 3,3%-i tələbə, 11,3%-i işləməyən təqaüdçü, 8,1%-i işsiz, lakin iş axtaran, 23,1%-i isə evdar qadınlardır.

2013-cü il Prezident seçkilərindən sonra dövlətimizin idarə edilməsində qazanılan uğurları qeyd edən respondentlərin 94,3%-i uğurların olduğunu vurğulayıblar. Bu uğurların sırasında təhlükəsiz yaşayış şəraiti (81,6%), sabit siyasi vəziyyət (78,9%), Qarabağ probleminin həlli istiqamətində fəaliyyət (44,3%) və digərləri qeyd olunmuşdur.

Növbəti mərhələdə rəyi soruşulanlara ölkə Prezidentinin həyata keçirdiyi siyasətlə bağlı suallar verilib. Ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasəti qiymətləndirənlərin 94,1%-i bu siyasəti dəstəklədiklərini, 2,9%-i dəstəkləmədiklərini bildiriblər. Rəyi soruşulanların 3,0%-i cavab verməkdə çətinlik çəkiblər.

Ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi daxili siyasəti qiymətləndirdikdə rəyi soruşulanların çoxu (86,0%-i) bu siyasəti dəstəklədiklərini, 6,3%-i isə dəstəkləmədiklərini qeyd ediblər. Rəyi soruşulanların 7,7%-i suala cavab verməkdə çətinlik çəkiblər.

Son 5 ildə Qarabağ probleminin həlli istiqamətində ölkə Prezidentinin atdığı addımları qiymətləndirən respondentlər bu fəaliyyəti yüksək qiymətləndiriblər. Onların 65,3%-i atılan addımları çox uğurlu, 23,2%-i - uğurlu, 6,3%-i uğursuz hesab ediblər. 5,2% rəyi soruşulan isə cavab verməkdə çətinlik çəkib.

Azərbaycan-Ermənistan münaqişəsinin həllində 25 ildən artıq iştirak edən beynəlxalq strukturların fəaliyyətinə münasibət birmənalı olmuşdur. Belə ki, ATƏT-in Minsk qrupu, AŞPA, BMT təmsilçilərinin fəaliyyətini uğurlu hesab edənlərin sayı cəmi 7,0% olmuşdur. Bu qurumların fəaliyyətini uğursuz hesab edənlər 86,9%-dir. Cavab verməkdə çətinlik çəkənlərin nisbi sayı 6,0% olmuşdur. Uğursuz fəaliyyəti qeyd edənlərin 28,3%-i, yəni üçdə biri, bu qurumların problemin həllinə münasibətlərini laqeyd, hətta erməniпərəst hesab ediblər.

Sorğu zamanı respondentlərə növbəti Prezident seçkiləri indi, məsələn, gələn həftə keçirilərsə kimə səs verərdiniz sualı ünvanlanıb. Lakin sorğunun Prezident seçkiləri elan olunduğu vaxta təsadüf etdiyindən respondentlər bu suala 2018-ci il aprel ayının 11-də Azərbaycanda keçiriləcək Prezident seçkilərini nəzərdə tutaraq cavab veriblər. Seçkilərdə iştirak edəcəklərinə dair suala cavab verən rəyi soruşulanların 66,5%-i seçkilərdə həmişə iştirak etdiklərini bildiriblər. Respondentlərin 26,1%-i ola bilər ki, iştirak edəcəklərini, 6,8%-i heç vaxt seçkilərdə iştirak etmədiklərini deyiblər. Cavabdan imtina edənlərin sayı 0,6% təşkil edib.

Sorğu zamanı respondentlərə 2013-cü ildə keçirilmiş ölkə Prezidenti seçkilərində kimə səs verdiklərini barədə sualla müraciət edilib. Onların 83,3%-i İlham Əliyevi, 1,2%-i başqa namizədləri dəstəklədiklərini deyiblər. Rəyi soruşulanların 8,6%-i seçkilərdə müxtəlif səbəblərdən, o cümlədən yaşları çatmaması səbəbindən iştirak etməyiblər. Respondentlərin 6,9%-i cavab verməkdə çətinlik çəkiblər.

Ölkəmizdə 2018-ci ilin aprel ayının 11-də keçiriləcək Prezident seçkilərində edəcəkləri seçimi açıqlayan respondentlərin 84,1%-i seçkilərdə birmənalı olaraq İlham Əliyevə səs verəcəklərini bildiriblər. Rəyi soruşulanların 0,2%-i başqa namizədlərə səs vermək niyyətindədirlər. Rəyi soruşulanların 9,2%-i hələ seçim etmədiklərini bildiriblər. 6,5% respondent isə ümumiyyətlə seçkilərdə iştirak etməyini etiraf edib. Göründüyü kimi, sorğunun nəticələri onu deməyə əsas verir ki, əvvəllər olduğu kimi bu gün də Azərbaycan seçicisi Prezident İlham Əliyevə alternativ görmür, ötən prezidentlik dövründəki fəaliyyətini qənaətbəxş hesab edir və birmənalı olaraq növbəti prezidentlik müddətində ölkənin məhz onun rəhbərliyi altında olmasını istəyir.

# İctimai qınaq kütləviliyi

## Yaxud Əli Həsənovun statuslarından doğan həqiqətlər

**Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun sosial şəbəkədə bir sıra avropalı "siyasi mühacirlər" barədə irəli sürdüyü fikirləri növbəti dəfə sübut etdi ki, əslində, söyüş və təhqir etmək yolu ilə heç bir siyasi uğur, yaxud üstünlük əldə etmək olmaz. Daha doğrusu, sivil mübarizənin özü də tərbiyədən keçən faktordur.**

Təəssüf ki, "avropalı mühacirlər" deyilən dırnaqarası zümrə bu və ya digər baxımdan, istədiklərini, məhz söyüşlər üzərində qurdular. Ancaq bu kimi "siyasi yol", əslində, həmin tərəflərin, sözün həqiqi mənasında, axırıncı yolda olduqlarını sübuta yetirmiş oldu. Alınmadı... Yaxud təhqirlərdən yoğrulmuşlar bəlli xarici dairələr tərəfindən onlara verilən sifarişlərin öhdəsindən gəlməyi bacarmadılar. Halbuki onlara müxtəlif yerlərdən və müxtəlif cinahlardan, hətta müxalifətdən kütləvi qınaqlar oldu. Fəqət, nə qınaq, nə tövsiyə, nə də digər mühüm amilləri qulaqardına vuran avropalı Vətən xainləri bu gün də öz iyrənc əməllərini "siyasət" adı altında, yaxud "müxalifətçilik" pərdəsi arxasında davam etdirməkdədirlər.

Bu arada sosial şəbəkələrdə də Əli müəllimin tövsiyə xarakterli statusları müzakirə olunmaqda davam edir və Avropada heç bir mənəvi dəyərlərə sığmayan ünsürlər barədə ən sərt tənqidlər yazılır.

### Sahib Kərimov: "Bəlkə də bələləri pula aldanıb, şərəflərini satdıqları günə lənət oxuyurlar..."

Misal üçün, Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü Sahib Kərimov sosial şəbəkədə yazdığı statusunda qeyd edir. SİTAT: "Siz Avropada təhqir kampaniyasını aparanlara fikir verməyin. Onları dəstəkləyən "intiligentlər" kimlərdir? Bəziləri burada yaşayır, bəziləri Avropada. Hiss olunur ki, sınmış və alçalmış adamları müdafiə etmək, hətta onlara da çətindi. Amma lazımdı. Şəbəkənin tələbi budur. Bəlkə də bələləri pula aldanıb, şərəflərini satdıqları günə lənət oxuyurlar. Amma variant da yoxdur. Dairəyə düşən, ordan çıxa bilməz".

Göründüyü kimi, Avropada "siyasi mühacir" adı altında çirkin məqsədli fəaliyyət göstərənlərin əsas məqsədləri heç də siyasi maraqları deyil, tamamilə başqa maraqları sərgiləyir. Davamlı oturum izni almaq və s...

### Sənan Nəcəfov: "Qarşı tərəfi natamamlıq və milli-mənəvi dəyərlər saygısızlığına inandırmaq- manupulyativ proqramların nəticəsidir"



QHT xəbər saytının baş redaktoru Sənan Nəcəfov isə geniş məqaləsində sözügedən məsələyə toxunaraq, bu fikirləri qeyd edib. SİTAT: "Əgər klassik müharibələrin hədəfi düşmənin fiziki məhvidirsə, informasiya müharibəsinin hədəfi müxtəlif manipulyasiya metodları ilə rəqibi mənəvi məhv etməkdir. Burada Qarabağ müharibəsində silahsız Azərbaycanın mübarizəsini, Ramil Səfərov məsələsini, Avropa oyunlarını, Avroviziya yarışmasını, bir müddət rekord olaraq qeydə alınan dünyanın ən hündür Bayraq Sütunu haqda deyilənləri xatırlatmaq yerinə düşər. Qarşı tərəfi natamamlıq və milli-mənəvi dəyərlər saygısızlığına inandırmaq- manupulyativ proqramların nəticəsidir".

Bəli, məhz aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə deyil, daha öncəki mühüm ictimai-siyasi, mədəniyyət və idman hadisələri ərəfəsində də bizlər eyni mənzərənin şahidləri olmuşduq. Bu baxımdan, illər keçsə də, sözdə müxalifət adı altında müxtəlif ölkələrdə Azərbaycan dövlətinin maraqlarına qarşı canfəşanlıq edənlər dəyişməyiblər. Hətta belə deyək, 80-ci illərin sonlarındakı, 90-cı illərin əvvəllərindəki küçə müxalifəti postlarını qoruyub saxlayıblar.

### Hikmət Babaoğlu: "Nəticədə, bu marginallar özlərini bir daha ifşa etməklə, kimə xidmət etdiklərini göstərmiş oldular və yenidən ictimai qınaq obyektinə çevrildilər"



Bu arada "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru, millət vəkili Hikmət Babaoğlunun mətbuata verdiyi açıqlamasına bir daha diqqət yetirə bilərik.

"Siyasi mübarizəni şər-böhtan səviyyəsinə endirmək anti-Azərbaycan mərkəzlərin yeni taktikası kimi müəyyənləşdirilib"-deyə qeyd edən Hikmət müəllim əlavə edib ki, bu kimi davranışlar, xüsusi məqsədə xidmət etməklə, milli-mənəvi dəyərlərimizə qarşı yönəlib: "Seçki prosesi mərhələsində belə qüvvələrin fəallaşması da təsadüfi deyil. Çünki seçki mədəniyyəti siyasi mədəniyyətin mühüm tərkib hissəsi olmaqla, həm də ümumi mədəniyyətimizin keyfiyyətini müəyyənləşdirir. Ona görə də, seçki ilində siyasi dəyərlərimizin və mədəniyyətimizin hədəfə alınması, ictimai nüfuz sahiblərinin, mühüm dövlət məmurlarının gözdən salınması, onların fikirlərinin təhrif edilməsi təsadüfi deyil".

"Elə bu günlərdə Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Ə.Həsənov da bu məsələni diqqətə çəkərək, bir qrup insanın xaricdə milli maraqlarımıza zidd hərəkət etdiyini və bunun planlı şəkildə həyata keçirildiyini söyləmişdi"-deyə xatırladan millət vəkili daha sonra bildirib: "Görünür, hədəfi düzgün göstərdiyinə görə Əli Həsənovun obyektiv və milli maraqlarımız baxımından tamamilə haqlı olan fikirlərini elə həmin xaricdəki "ideoloji təxribat" qrupu manipulyasiya etməyə başladı. Məsələ xaricdə yaşayan bütün azərbaycanlıların mənafeyinə zidd kimi təqdim olundu".

Beləliklə, millət vəkili Hikmət Babaoğlu bu fikirləri ilə demək istəyib ki, məqsəd kütləvi narazılıq yaratmaq cəhdi idi: "Ancaq həqiqət bu idi ki, Əli Həsənov, sadəcə, bir qrup anti-azərbaycançı ünsürlərdən danışmışdı. Əlbəttə, Azərbaycandan kənarda yaşayan çoxsaylı vətənpərvər və intellektual azərbaycanlılar həqiqətin nə olduğunu dəqiq bilirlər. Ona görə də, islamofob marginalların qaralama kampaniyasına əsla inanmırlar. Nəticədə, bu marginallar özlərini bir daha ifşa etməklə, kimə xidmət etdiklərini göstərmiş oldular və yenidən ictimai qınaq obyektinə çevrildilər".

Ümumiyyətlə, bu kimi haqlı qınaqlar və tənqidlər artıq o qədər çoxdur ki, onların hər birini bir qəzetə deyil, onlarla qəzet səhifəsinə sığışdırmaq olmaz. Bu isə, bütövlükdə, sağlam düşüncəli ictimaiyyətin kütləvi etirazıdır - avropalı "siyasi mühacirlərə" və təhqirlərdən yoğrulmuş ünsürlərə...

*Rövşən RƏSULOV*

---

"Armeniareport":

### Ermənistan hökumətinin sosial-iqtisadi problemlərin həlli ilə bağlı verdiyi vəd yalandır

Ermənistan hökuməti vətəndaşları sosial-iqtisadi problemlərin həll olunacağına inandırmağa çalışır. Ancaq verilən vədlər yalandır. AZƏRTAC xəbər verir ki, bu fikir Ermənistanın "Armeniareport" saytında yayılmış məqalədə yer alıb. Yazıda qeyd olunur ki, sosial-iqtisadi problemlərin yaxın gələcəkdə aradan qaldırılması ümidverici deyil. Çünki ölkədə qanunlara uyğun tədbirlər görülmür. Problemlərin həlli yalnız ölkəni tərk etməkdir. Ermənistan iqtisadiyyatının yaxşılaşması reallaşmayan arzudur. Hökumətin maaşların və pensiyaların artırılması ilə bağlı verdiyi vəd yalandır. Ölkəni idarə edənlər əhalinin gəlirlərini artırmaq istəmirlər. Ermənistan hökuməti erməni xalqını səfalətə məhkum edir. Ölkədə iqtisadiyyatın inkişafı real deyil.

---

## İsa Həbibbəyli: "Müdrik və qədirbilən xalqımız növbəti dəfə də mühüm və qəti seçiminin böyük bəhrəsini görəcək"



"XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini, irəliyə doğru inkişafın üfüqlərini aydın görən, siyasi müstəvidə yeni istiqamətlər açan, yol göstərən görkəmli dövlət xadimi İlham Əliyev möhkəm siyasi iradəyə və hərtərəfli yüksək hazırlığa malikdir". Bu fikri yap.org.az saytına müsahibəsində AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli deyib.

İ.Həbibbəyli bildirib ki, bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi düşüncəsinin və mühüm idarəetmə məharətinin olması dövlətin normal inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi və vətənpərvərliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır.

"Xalqımız Prezident seçkilərinə Prezident İlham Əliyevin rəhbərliyi ilə yaradılmış yeniləşmiş möhtəşəm azərbaycan boyda böyük hesabatla gedir. Müasir Azərbaycan haqqında hesabatın müəllifi Azərbaycan xalqının lideri İlham Əliyevdir. Ona görə də ölkənin və xalqımızın qarşıdakı Prezident seçkilərinə gedərkən qəlbinin dərinliklərindən gələn yalnız bir qərarı vardır: İLHAM ƏLİYEV! Uzaqgörən, müdrik və qədirbilən xalqımız növbəti dəfə də bu mühüm və qəti seçiminin böyük bəhrəsini görəcəkdir. İndiki müdrik seçimin ən böyük nəticəsi daha güclü və inkişaf etmiş müstəqil Azərbaycan dövləti və yüksək xoşbəxt həyat şəraiti qazanmaq imkanları əldə edən, birlik və bərabərlik nümayiş etdirən Azərbaycan xalqı olacaqdır"-deyə, akademik vurğulayıb.

## Ərtuğrul Soysal: Azərbaycan xalqı azad şəkildə öz seçimini edəcək



Aprelin 11-də Azərbaycan xalqı azad şəkildə öz seçimini edəcək. AZƏRTAC xəbər verir ki, bu fikri sechki-2018.az saytına açıqlamasında Türkiyə Böyük Millət Məclisinin Ədalət və İnkişaf Partiyasından olan deputatı Ərtuğrul Soysal deyib. Azərbaycanın və Türkiyənin bir millət, iki dövlət olduğunu xatırladan deputat deyib: "Azərbaycanda insanların rifah halının yüksəldiyini müşahidə edirik. Bu, qardaş Türkiyəni çox sevindirir". Azərbaycandakı ictimai-siyasi hadisələrlə maraqlandıqlarını vurğulayan deputat qeyd edib ki, Türkiyə ictimaiyyəti Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı prosesləri yaxından izləyir. "Biz Azərbaycan xalqının azad şəkildə öz seçimini edəcəyinə, layiqli namizədə səs verəcəyinə əminik. Türkiyə hər zaman çətin anlarında Azərbaycanı yanında görür", - deyə Ərtuğrul Soysal vurğulayıb.

## MSK rəsmisi: "MSK namizədlərə bərabər şərait yaradıb"



"Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən seçkilər prosesi və həyata keçiriləcək hərəkətlərin "Təqvim Planı"nı təsdiq edilib. Həmin "Təqvim Planı"nına əsasən namizədlər irəli sürülüb və 8 namizəd qeydə alınıb". Bunu SİA-ya açıqlamasında MSK üzvü İlkin Şahbazov deyib.

Onun sözlərinə görə, MSK öz səlahiyyətləri çərçivəsində həmin namizədlərə bərabər şərait yaradıb: "Belə ki, namizədlərə öz təşviqatlarını aparmaqdan ötrü artıq 84 açıq və qapalı yerlər ayrılıb. Bu, təşviqat aparmaq üçün daimi yerlərdir. Həmin yerlər respublikanın bütün coğrafiyasını əhatə edir. Bundan əlavə MSK tərəfindən bütün seçki subyektlərini əhatə edəcək geniş miqyaslı maarifləndirmə tədbirləri həyata keçirilib. Bunlardan xüsusilə dairə seçki komissiyaları (DSK) sədrləri üçün maarifləndirmə tədbirini, aşağı seçki komissiyaları üçün yerlərdə keçirilən üç günlük maarifləndirmə tədbirlərini və bütün respublikanı əhatə edən, genişliyi baxımından treninqlər üçün treninq tədbirini qeyd etmək lazımdır. Bundan əlavə MSK müşahidəçilər üçün yaddaş, KİV nümayəndələrinə aid seçki üçün yaddaş, aşağı seçki komissiyalarının üzvləri üçün səsvermə gününə aid yaddaş ləvazimatları dərc edib.

Qeyd etmək lazımdır ki, müşahidəçilər üçün yaddaş üç dildə - Azərbaycan, rus və ingilis dilində çap olunub. Bunların rus və ingilis dilində dərc olunmasının əsas səbəbi beynəlxalq müşahidəçilərin 2018-ci il aprelin 11-də keçiriləcək seçkilərə marağından irəli gəlir. Belə ki, artıq 312 beynəlxalq müşahidəçi qeydiyyatdan keçib. Onlardan 34 beynəlxalq təşkilatdan və 47 ölkədən olan müşahidəçilərdir. Artıq ATƏT-in uzunmüddətli müşahidə missiyası da fəaliyyətdədir və onlar burada öz müşahidələrini aparırlar. Qısamüddətli müşahidəçilərin gəlişi də gözlənilir".



# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Nərimanov seçiciləri qərarlıdır -"İlhamla irəli"

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatında Nərimanov rayon sakinləri ilə növbəti görüş keçirilmişdir.





Tədbiri Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı İlham Əliyevin apardığı ardıcıl və sistemli islahatlar, həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə istər regionda, istərsə də bütün dünyada qazandığı uğurlardan danışdı.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli çıxış edərək, bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev artıq, geniş mənada, dünyada qəbul olunmuş görkəmli siyasi liderdir. İ.Həbibbəyli bildirib ki, hazırda Azərbaycanın yaxından iştirakı, maraqları təmin olunmadan, nəzərə alınmadan regionda heç bir problemin həllindən danışmaq olmaz: "Dünyada belə yüksək nüfuzu ölkəmizə Prezident İlham Əliyev qazandırmışdır. Bütün bunlara görə ölkənin rəhbərini seçmək üçün Azərbaycan xalqının yenidən düşünüb-daşınmasına xüsusi bir ehtiyac yoxdur. Xalqımız prezident seçkilərində özünün qəti seçimini edərək, Cənab İlham Əliyevi yenidən Prezident seçəcəkdir".

Tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirdi ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev gənclərin arzularının reallaşması istiqamətində davamlı və qətiyyətli siyasət yürüdür. Onun sözlərinə görə, Azərbaycan qısa müddətdə iqtisadi-siyasi cəhətdən regionun lider dövlətinə çevrilib, hərbi potensialımız olduqca yüksək səviyyədədir.

S.Orucov əldə olunan uğurların davamı naminə hər bir azərbaycanlı gəncini 11 apreldə keçiriləcək prezident seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Daha sonra iş adamı Xudu Rzayev və SOCAR AQŞ-nin əməkdaşı Anar Hacıyev çıxış edərək, hər zaman olduğu kimi, bu seçki prosesində də fəal iştirak edəcəklərini və YAP tərəfindən irəli sürülmüş namizədi dəstəklədiklərini vurğuladılar.

Tədbirdə "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxış edərək, bildirdi ki, YAP ümumxalq partiyasıdır və partiyanın namizədi 700 mindən çox olan partiya üzvlərinin namizədidir. Bu isə, əslində, Azərbaycan xalqı deməkdir. H.Babaoğlu söylədi ki, YAP-ın Sədri, Cənab Prezident İlham Əliyev hər bir Azərbaycan vətəndaşının rifahı, onun inkişafı, gələcəyi üçün əlindən gələn hər şeyi edib. Hər şeydən öncə, Azərbaycanda ictimai-siyasi sabitliyi yaradıb, ölkəmizin milli maraqlarını qoruya bilib, mürəkkəb tarixi bir mərhələdə ətrafımızda terror hadisələrinin, müharibələrin, xaosun baş verdiyi bir vəziyyətdə Azərbaycanı sabitlik adası kimi qoruyub-saxlaya bilib. Hələ, üstəlik, onu inkişaf etdirib və ölkəmizdə işsizliyin və yoxsulluğun səviyyəsi azalıb. Azərbaycanın regionları inkişaf edib, dövlətimiz region, dünya ölkələri içərisində çox mühüm bir tərəfdaşa çevrilib. Buna paralel olaraq, Cənab Prezident Azərbaycan Ordusunu gücləndirib. Ölkə başçısı Ali Baş Komandan kimi 2016-cı ilin aprel döyüşlərinə imza atıb. Bununla da, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi hərbi-siyasi dönüşə nail olub. Sadalayacağımız çoxsaylı bu kimi uğurlar, əlbəttə ki, 11 aprel seçkilərində Azərbaycan xalqının seçimini müəyyənləşdirəcək və xalq öz alternativsiz lideri olan Cənab İlham Əliyevi yenidən Prezident seçəcəkdir.

## Xızı seçicilərinin seçimi Cənab İlham Əliyevdir!

YAP Xızı rayon təşkilatında prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Xızı rayonunda seçicilərlə növbəti görüş keçirilib.

F.Haqverdiyev çıxış edərək bildirib ki, Azərbaycan növbəti siyasi-ictimai hadisə - prezident seçkiləri ərəfəsindədir və bu gün ölkədə aparılan genişmiqyaslı inkişaf və tərəqqi işləri son 15 ildə reallaşdırılan uğurların sübutudur. "Ümumiyyətlə, əldə edilən hər bir uğur, bilavasitə Cənab İlham Əliyevin apardığı mütərəqqi və məqsədyönlü siyasətin bariz nəticəsidir"- deyə qeyd edən natiq aprelin 11-də seçiciləri fəal olmağa və Yeni Azərbaycan Partiyasının alternativsiz namizədi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb.

Ardı Səh. 7

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 6

Tədbirdə çıxış edən "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev vurğulayıb ki, Azərbaycanda son 15 il ərzində aparılan mütərəqqi daxili və xarici siyasətin nəticəsində, ölkəmiz beynəlxalq aləmdə söz sahibinə çevrilib: "İstər regio-





nal, istərsə də beynəlxalq layihələrin ardıcıllıqla həyata keçirilməsi hər bir azərbaycanlının daha firavan, daha xoşbəxt yaşaması naminə atılan addımlardır və bütün bunlar Cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin bariz nümunəsidir." Bəhruz Quliyev Cənab İlham Əliyevin hər bir azərbaycanlının Prezidenti olmasını əməli fəaliyyəti ilə sübuta yetirildiyini vurğulayıb: "İnanırıq ki, Xızı rayonunun seçiciləri daha böyük nailiyyətlərin əldə edilməsi, Azərbaycanın istər regionda, istərsə də beynəlxalq aləmdə öz yerini möhkəmləndirməsi naminə aprelin 11-də Möhtərəm İlham Əliyev Cənablarına, birmənalı olaraq səs verəcəklər".

Görüşün sonunda bir qrup fəal partiya üzvlərinə YAP Xızı rayon təşkilatının Fəxri Fərmanları təqdim edilib.

## Səbailin gəncləri "İlhamla İrəli!"-deyir

Dünən YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsi 11 aprel tarixində keçiriləcək prezident sesçkilərində prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində ilk dəfə səs verən gənclərlə "İLHAMLA İRƏLİ!" şüarı ilə görüş keçirib. Görüşdə 250-dən çox gənc iştirak edib.






Görüşdə çıxış edən Milli Məclisin deputatı, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin sədri Şəmsəddin Hacıyev bu il ilk dəfə səs verəcək gəncləri təbrik edərək, bildirib ki, ilk dəfə səs vermək və ümumxalq səsverməsində öz siyasi iradəsini nümayiş etdirmək hər bir gəncin həyatında tarixi hadisədir. İlk dəfə səs vermək nə qədər əhəmiyyətlidirsə, Cənab İlham Əliyev kimi müdrik, cəsarətli, uzaqgörən Liderə, siyasətçiyə səs vermək ikiqat şərəflidir.

Millət vəkili ölkəmizdə aparılan dövlət-gənclər siyasəti, gənclər üçün yaradılmış təhsil və iş imkanları barədə məlumat verərək, bildirib ki, Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı, bu sahədə reallaşdırılan uğurlu layihələrin sayı və miqyası günbəgün artır.

Ş.Hacıyev gəncləri seçkilərdə fəal olmağa və əldə olunan nailiyyətlərin, ölkəmizdəki ictimai-sabitliyin davamlı olması üçün, Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırdı.

Tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyeva, YAP Nərimanov rayon gənclər birliyinin sədri Yusif Babanlı, YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin məsləhətçisi, YAP Səbail rayon gənclər birliyinin sədr müavini Fərid Nəsibov, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Əvəz Bayramov, YAP Səbail rayon təşkilatının baş məsləhətçisi Bəyim Nəbiyeva və başqaları Cənab İlham Əliyevin Azərbaycanın inkişafı üçün gördüyü işlərdən danışaraq, daha qüdrətli və dinamik inkişaf edən Azərbaycan naminə gəncləri Cənab İlham Əliyevin namizədliyini dəstəkləməyə çağırıblar.

Yüksək əhval-ruhiyyə ilə keçən tədbirdə səbailli gənclər Cənab İlham Əliyevi dəstəkləyən çoxsaylı şüarlar səsləndirib və yekdilliklə Ona səs verəcəklərini bildiriblər.

## Qaxlılar YAP-ın namizədini - İlham Əliyevi dəstəkləyir

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin Qax rayonu üzrə seçki qərargahı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir.





Təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş dünən rayonun İngiloy-Kötüklü, İbaxlı və Əlibəyli kəndlərinin seçiciləri ilə keçirilmişdir. Görüşdə təbliğat qrupunun üzvlərindən Vüqar Əhmədzadə, Rasim Məmmədov seçicilər qarşısında çıxış edərək, bildirdilər ki, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir: "Bu gün Ulu Öndər Heydər Əliyev siyasi kursu etibarlı əllərdədir. Bu gün Azərbaycan xalqı firavan, xoşbəxt həyat sürür, dövlətimiz günü-gündən inkişaf edir, ölkəmizin hər yerində- paytaxtımızdan tutmuş ucqar kəndlərə kimi- abadlıq-quruculuq işləri gedir. Prezidentimizin də, söz verdiyi kimi, yeni-yeni iş yerləri açılır, əmək haqları artırılır və sosial layihələr həyata keçirilir. Bax, budur Azərbaycan reallığı, budur gələcəyimizin təminatı. Bütün bunları görərək, təhlil edərək, öz sabahımıza səs vermək hər birimizin borcudur. Əminik ki, 11 apreldə xalqımızın bir parçası olan qaxlılar da partiyamızın namizədinə səs verəcəklər".

Kənd sakinlərindən Masiko Babacanaşvili, Rahilə Zeynalova, Andro Sonaşvili çıxış edərək, qeyd etdilər ki, Cənab Prezidentimiz son illər ərzində rayonumuza xeyli sayda səfər etmişdir: "Bu səfərlər hər birimizdə xoş təəssüratlar yaratmışdır. İşinin gərgin vaxtında bizləri unutmayan və teztez bizim görüşümüzə gələn Prezidentimizin həmişə arxasındayıq. Özümüz və səsimiz həmişə Cənab İlham Əliyevlədir".

## Oğuzlular Cənab İlham Əliyevə səs verəcəklər

11 aprel tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının






Oğuz rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri rayonun Yaqublu, Top və Zərrab və Yenikənd kəndlərindən olan seçicilərlə görüş keçiriblər.

Tədbirdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətdən və əldə olunan uğurlardan danışıb.

Rayon şöbəsinin sədri bildirib ki, Oğuz ictimaiyyəti hər zaman Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevi dəstəkləyib: "Rayon ictimaiyyəti dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasını böyük məmnunluqla qarşılayır. Oğuz seçiciləri növbəti dəfə Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə etimad göstərəcəyini, bununla da seçicilər inkişafı, firavanlığı və sabitliyi seçmiş olacaqlar".

Seçicilər qarşısında çıxış edən rayon Ağsaqqallar Şurasının sədri Cuma Cumayev, YAP Oğuz rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvləri Rəşid Nurməmmədov, İradə Məmmədova, Anar Məcidov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən bəhs ediblər. Onlar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin növbəti dəfə inamlı qələbə qazanacağına inandıqlarını bildiriblər.

Görüşdə Yaqublu kənd ərazi ilk partiya təşkilatının sədri Arif Əliyev, kənd sakinlərindən Nurlana İsmayılova, İmran Verdiyev və digərləri çıxış edərək, Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətdən, əhalinin sosial rifah halının yaxşılaşdırılmasından, ölkəmizdə və eləcə də, rayonda görülən işlərdən danışıblar. Seçicilər seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

Ardı Səh. 8

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 7

## Şamaxılılar alternativsiz lider Cənab İlham Əliyevə səs verəcəklər

YAP Mərkəzi Seçki Qərargahı Şamaxı rayon şöbəsi dünən Şamaxı şəhəri Mədəniyyət Evində gənclər, ağsaqqallar və mədəniyyət işçiləri ilə görüş keçirib. Görüşdə YAP Mərkəzi Seçki Qərargahının üzvləri Xarici Dillər Universitetinin rektoru akademik Kamal Abdulla, Azərbaycan Aypara Cəmiyyətinin prezidenti, millət vəkili Novruzəli Aslanov, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, YAP Mərkəzi Aparatının məsul işçisi Həsən Daşdəmirov iştirak ediblər.





İlk öncə, yığıncağı giriş sözülə YAP Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov Prezident İlham Əliyevin 15 illik fəliyyətindən, müxtəlif sahələr üzrə apardığı islahatlardan, imza atdığı uğurlardan söhbət açaraq, seçiciləri ölkəmizin gələcək inkişafını, tərəqqisini təmin edcək yeganə lider Cənab İlham Əliyevə səs verməyə çağırıb. Sonra Xarici Dillər Universitetinin rektoru akademik Kamal Abdulla, Azərbaycan Aypara Cəmiyyətinin prezidenti, millət vəkili Novruzəli Aslanov, Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxış ediblər və hər biri, öz növbəsində, çiçəklənən Azərbaycanın uğurlarında Prezident İlham Əliyevin əvəzsiz rolundan, daxili və xarici siyasət sahəsində müvəffəqiyyətli addımlarından, əldə etdiyi nailiyyətlərindən danışaraq, hər bir seçicinin, bu ənənənin uğurla davam etdirilməsi üçün yalnız Cənab İlham Əliyevə səs verəcəyinə əminliklərini ifadə ediblər. Sonda qərargah üzvləri seçicilərin suallarına cavab verərək, hər bir seçicini seçkidə iştirak etməyə, öz iradəsini ifadə etməyə, doğru seçim olaraq, Cənab İlham Əliyevə səs verməyə dəvət ediblər.

## Cənab İlham Əliyevlə möhtəşəm uğurlara!

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsi Lahıc və Bəhmətli kənd seçicilərilə görüşlər keçirib. Görüşdə 300-ə yaxın seçici iştirak edib.

Görüşü Yeni Azərbaycan Partiyası Seçki Qərargahının Zaqatala rayon şöbəsinin sədri Habil Qurbanov açaraq, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən və sürətli iqtisadi inkişafa nail olmasından danışıb. H.Qurbanov uğur və nailiyyətlərin Cənab Prezidentin rəhbərliyi ilə gerçəkləşdiyini bildirərək, seçiciləri bu firəvan həyatın davamlığı üçün bütün azərbaycanlıların lideri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə YAP Zaqatala rayon təşkilatının təbliğat qrupunun üzvləri Ədalət Novruzova, Gülnigar Məmmədova, Kəmalə Əhmədova və başqaları çıxış edərək bildiriblər ki, hər sahədə qazandığımız uğurların təməlində Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti dayanır. Çıxış edənlər seçiciləri 11 aprel tarixində keçiriləcək prezident seçkilərində fəal olmağa, Azərbaycanın işıqlı gələcəyinə - Cənab İlham Əliyevə səs verməyə çağırıblar.





Kənd ağsaqqalları və ziyalıları kənd seçiciləri adından çıxış edərək, bildiriblər ki, iqtisadi qüdrətimizin inkişafı, rifahımızın yüksəldilməsi, Azərbaycanın beynəlxalq nüfuzunun daha da gücləndirilməsi naminə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

## Ağdaşlılar Cənab İlham Əliyevə səs verəcəklər

11 aprel 2018-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası Ağdaş rayonunda uğurla davam edir. Təbliğat-təşviqat kampaniyası çərçivəsində dünən rayonun Qolqəti, Dəhnəxəlil, Ağcayazı, Şəkili və Qoşaqovaq kəndlərində seçicilərlə görüşlər keçirilib.

Görüşlərdə çıxış edən Yeni Azərbaycan Partiyası Ağdaş rayon şöbəsinin sədri, millət vəkili Cavid Osmanov ölkəmizdə keçiriləcək prezident seçkilərinə artıq sayılı günlər qaldığını bildirib. C.Osmanov son illər Ağdaş rayonunda da görülmüş abadlıq-quruculuq işlərinin hər bir ağdaşlının gözü önündə baş verdiyini və bütün bunların ölkədə gedən sürətli inkişafın bir hissəsi olduğunu qeyd edib. Görülən işlərə rəğmən, ağdaşlıları ölkəmizin daha böyük uğurlara imza atmaq naminə, prezident seçkilərində fəal olmağa, partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Seçicilər adından çıxış edənlər - Məmmədrəsul Hacıyev, Qənifə Məmmədova, Dilbər İbrahimova, Aşafatma Əhmədova və Mirxalid Yunusov bəyan ediblər ki, onlar hər zaman Yeni Azərbaycan Partiyasının siyasi dəst-xəttini bəyəniblər





və bu gün də bu, belədir. Odur ki, aprel ayının 11-də Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklər.

Görüşdə təbliğat qrupunun üzvlərindən Sevgili İbrahimova və İsa Eminov çıxış edərək, 11 aprel 2018-ci ilin ölkəmizdə tarixi bir gün olacağını, bunun üçün səsvermə hüququ olan hər bir rayon sakininin fəallıq nümayiş etdirməsinin vacibliyini vurğulayıblar.

## Binəqədidə Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam edir

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı tərəfindən Yeni Azərbaycan Partiyasının bu ilin 11 aprel tarixində keçiriləcək prezident seçkilərinə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir. Bu məqsədlə rayon təşkilatının inzibati binasında Binəqədi rayon seçiciləri ilə görüş keçirilib.

Görüşdə giriş nitqi ilə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri, Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov dövlət başçısı, prezidentliyə namizəd Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 15 il ərzində bütün sahələrdə dinamik inkişafa nail olunduğunu söyləyib. R.Göyüşov, həmçinin, dövlət başçısının uğurlu xarici siyasətindən danışıb. R.Göyüşov dövlət başçısının siyasi iradəsi ilə işğal altındakı torpaqlarımızın tezliklə azad olunacağına əminliyini ifadə edərək, bütün seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Milli Məclisin komitə sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov çıxışında dövlət başçısı Cənab İlham Əliyevin ölkəmizdə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına yüksək diqqət verdiyini və bu istiqamətdə çoxsaylı uğurlu islahatları həyata keçirdiyini söyləyib. E.İbrahimov, eyni zamanda, ölkəmizin dünyada artan nüfuzundan, bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etməsindən, bu yaxınlarda Bakıda keçirilən VI Qlobal Bakı Forumundan bəhs edərək, bütün bunları Cənab İlham Əliyevin uzaqgörən si-

# Xalq İlham Əliyevə "HƏ" deyir!

yasətinin nəticəsi adlandırıb və ölkəmizin beynəlxalq arenada tanıdılmasına hesablandığını qeyd edib. Növbəti illər ərzində də ölkəmizin sürətli inkişafı və tərəqqisi naminə bütün seçiciləri Cənab İlham Əliyevi dəstəkləməyə və səs ver-






məyə çağırıb.

Milli Məclisin deputatı Madar Musayev çıxış edərək, bildirib ki, Cənab İlham Əliyevin seçki platforması Onun gördüyü işlər, dövləti və xalqı qarşısındakı əvəzsiz xidmətləridir. Millət vəkilinin sözlərinə görə, xalqımız ölkəmizə qara yaxmağa çalışan heç bir qüvvəyə aman verməməli, öz rəhbərini daim müdafiə etməli, dövlət təhlükəsizliyinin təmin olunmasını hər bir məqsəddən üstün tutmalıdır. M.Musayev çıxışının sonunda bütün seçiciləri Cənab İlham Əliyevə səs verməyə dəvət edib.

Görüşdə çıxış edən bir qrup seçici - Anar Əliyev, Eldar Qurbanov və Vüsalə Fətullayeva seçkilərə "İlhamla İrəli" şüarı ilə gedərək, Cənab İlham Əliyevi dəstəkləyəcəklərini və Azərbaycanın işıqlı gələcəyinə səs verəcəklərini söyləyiblər.

## Qobustanlılar güclü LİDERƏ- İLHAM ƏLİYEVƏ səs verəcəklər

Dünən Qobustan rayonunun təhsil işçiləri ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsində növbəti görüşü keçirilib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev bildirib ki, bu gün ölkənin bütün bölgələrində Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində görüşlər uğurla davam edir. Füzuli Gülaliyev iştirakçıların nəzərinə çatdırdı ki, ölkədə elmin, təhsilin inkişafının nəticəsidir ki, ən güclü potensiala malik elm, təhsil ocağı da Azərbaycandadır və ölkə iqtisadiyyatının elmin əsasları ilə inkişafına xidmət edəcək bu işlərin müəllifi isə Cənab İlham Əliyevdir. Bu gün Qobustan sakinləri bilir ki, Cənab Prezidentin rəhbərliyi ilə yeni-yeni məktəblər tikilib istifadəyə verilib. Onlarla məktəb binası cari təmir edilərək, şagirdlərin təkrar istifadəsinə verilib. Gələcəkdə də yeni məktəblərin tikilməsi nəzərdə tutulub. Bütün bu qeyd olunanları nəzərə alaraq Füzuli Gülaliyev seçiciləri 11 aprel 2018-ci ildə sabitliyə, əmin-amanlığa, tərəqqiyə, güclü liderə- Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin üzvləri Rus-





lan Şahbazov, Tahir Şıxaliyev, Əlisa Hacıyev, təbliğat-təşviqat qrupunun üzvü Abgül Babayev, Bəyim İsmayılova və digərləri Cənab İlham Əliyevin daxili və xarici siyasətini bəyəndiklərini qeyd etməklə, Cənab Prezidentin Azərbaycan təhsilinə göstərdiyi qayğı və diqqətdən geniş məlumat verərək, Ona öz minnədarlıqlarını bildirməklə, təhsil sahəsində çalışan bütün seçicilərin iradəsini ifadə edərək, 11 aprel 2018-ci ildə seçki məntəqələrinə gələrək güclü liderə - Cənab İlham Əliyevə səs verəcəklərini qeyd ediblər.

## Biləsuvar seçiciləri "İlhamla irəli" şüarı ilə seçkilərə gedir!

11 aprel 2018-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində növbəti görüş rayon Mədəniyyət Mərkəzində Biləsuvar rayonu təhsil işçiləri ilə keçirilib.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Biləsuvar rayon şöbəsinin sədri Kamil Mirzəyev qarşıdan gələn prezident seçkiləri ilə bağlı məlumat verərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramı ilə seçiciləri tanış edib. Natiq vurğulayıb ki, 2003-2018-ci illər ərzində Cənab İlham Əliyevin ölkə Prezidenti kimi gördüyü titanik işlər Azərbaycanın inkişafına çox böyük təkan verib və son 15 ildə Azərbaycan böyük uğurlara imza atıb. K.Mirzəyev əminliklə bildirib ki, Biləsuvar rayonunun təhsil işçiləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə Azərbaycan Dillər Universitetinin müəllimi, filologiya elmləri doktoru, professor Fikrət Cahangirov çıxış edərək, bildirib ki, 2003-cü ildən keçən müddət ərzində ölkə Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi sosial islahatlar nəticəsində təhsil, səhiyyə, mədəniyyət və idman sahəsində çox böyük uğurlara imza atılmışdır. Natiq bütün təhsil işçilərini 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Milli Məclisin deputatı, Parlamentin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin üzvü Mirkazım Kazımov bildirib ki, ölkə Prezidenti Cənab İlham Əliyevin hakimiyyəti illərində Azərbaycan, nəinki Zaqafqaziya regionunda, eyni zamanda, MDB məkanında lider dövlətə çevrilib. Millət vəkili bütün seçiciləri Yeni Azərbay-





can Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə dəvət etdi. Çıxış edən təhsil işçiləri bildirdilər ki, 11 aprel 2018-ci il tarixdə keçiriləcək seçkilərdə Biləsuvar rayonunun təhsil işçiləri, Yeni Azərbaycan Partiyasının namizədi, Cənab İlham Əliyevə səs verəcəkdir.

## Ucar seçiciləri: "Cənab İlham Əliyev müasir Azərbaycanın inkişafının qarantıdır!"





Dünən prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi rayonun Qazqumlaq kəndində böyük mitinq keçirib.

*Ardı Səh. 10*

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 9

Mintinqi giriş sözü ilə YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq, qeyd edib ki, Azərbaycan xalqı fəxr edir ki, onun Prezident İlham Əliyev kimi parlaq dövlətçilik istedadına, mühüm beynəlxalq nüfuza, ümumxalq məhəbbətinə, böyük quruculuq təcrübəsinə və düşünülmüş qətiyyətə malik görkəmli dövlət rəhbəri var. "Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsəqyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir"-deyə qeyd edən Ş.Abdullayeva seçki günü hər kəsi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Təbliğat qrupunun üzvüləri Alı Babayev, Zeynal Bayramlı və Rahib Rəsulov çıxış edərək, Prezident İlham Əliyev bütün fəaliyyətində Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqdir və Ümummilli Liderimizin müəyyən etdiyi inkişaf strategiyasını uğurla davam və inkişaf etdirdiyini qeyd etdilər və seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi, Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

Tədbirdə seçicilər adından Rafiq Rəhimov, Elxan Eminov və Tağı Nəbiyev çıxış edərək, Cənab İlham Əliyevin Azərbaycanı daha işıqlı gələcəyə apardığını vurğulayıb və seçkilərdə Onun namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan ediblər.

## Şəki seçiciləri işıqlı gələcəyə səs verəcəklər

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 1490 nəfərdən yuxarı seçicisi olan Şəki rayonu Baltalı kəndində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə seçicilərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü işlərdən danışıb. Bildirib ki, Prezident İlham Əliyevin müdrik və məqsədyönlü siyasəti nəticəsində son 15 ildə Azərbaycan çox böyük uğurlara imza atıb. O, əmin olduğunu bildirib ki, Baltalı kənd seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.





Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun üzvləri Kamil Məmmədov, Sədrəddin Bədiyev və Şahid İsmayılov çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin həyat və fəaliyyəti, eyni zamanda, ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə sonsuz xidmətləri barədə ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Tədbirdə çıxış edən seçicilər kənd sakinlərinin artıq öz seçimlərini etdiklərini və 11 aprel tarixdə xalqımızın layiqli oğlu Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Qəbələdə seçicilər Cənab İlham Əliyevə səs verəcəklər

Dünən prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qəbələ rayonunun Böyük Pirəli, Soltannuxa və Kiçik Pirəli kəndlərinin seçiciləri ilə görüş keçirilib. Tədbiri Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qəbələ rayon şöbəsinin təşviqat qrupunun üzvü Azad Məmmədov açaraq, ölkəmizin hərtərəfli





inkişafında Cənab İlham Əliyevin böyük rolu olduğunu, Onun diqqət və qayğısını xüsusi vurğulayıb və seçiciləri 11 aprel 2018-ci ildə keçiriləcək seçkilərdə Cənab İlham Əliyevə səs verməyə çağırıb. Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Arifə Bayramova Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətdən danışıb və seçicilərin yekdilliklə Cənab İlham Əliyevə səs verəcəyinə əminliyini bildirib.

Görüşdə çıxış edən seçicilərdən Səhrab Babayev, Qədim İsgəndərov, Elçin İslamzadə və Gülşad Rəhimova Azərbaycanın işıqlı gələcəyinə - Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

## "İlhamlı sabahımıza "İLHAMLA İRƏLİ!"

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Çarxı kənd seçiciləri ilə görüş keçirmişdir.

Görüşü YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə dövlət siyasətinin həyata keçirilməsini bidirərək, dövrün tələblərinə uyğun sistemli islahatların aparıldığını diqqətə çatdırıb. Bildirib ki, ictimai-siyasi və sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin edib. Rayon təşkilatının sədri "İlhamlı sabahımıza, "İLHAMLA İRƏLİ!", - deyərək, bütün xaçmazlıları uğurlu gələcəyimizin qarantı - Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə Milli Məclisin deputatı Eldəniz Səlimov çıxış edərək, 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə






ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının tətbiqi ilə həyata keçirilən islahatlardan danışaraq, seçiciləri prezident seçkilərində alternativsiz namizəd olan Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə kənd sakinlərindən Əzizulla Mədətov, Nəbi Bağırov, Oqtay Qurbanov, Əlican Əliyev, rayon ağsaqqallar şurasının sədri, təşviqat qrupunun üzvü Əli Mustafayev və başqaları çıxış edərək, ölkəmizin gündən-günə inkişaf etdiyini, insanların rifah halının yüksəldiyini bildirərək, bu işlərin davamlı olmasını vurğuladılar. Ona görə də, rayon seçicilərinin 11 apreldə Ulu Öndər Heydər Əliyev siyasətinin ən layiqli davamçısı Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

## Qubalılar uğurlarımızın davamı üçün Cənab İlham Əliyevi dəstəkləyəcəklər

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası uğurla davam etdirilir. Dünən rayonun Zərdabi inzibati ərazi dairəsində seçicilərlə görüş keçirilib.

Görüşdə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov





çıxış edərək, bildirib ki, Azərbaycan cəmiyyətinin əksəriyyəti Prezident İlham Əliyevə dərin inam və etimad bəsləyir.

Ardı Səh. 11




# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 10

Y.Abidovun sözlərinə görə, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu siyasət xalqımız tərəfindən dəstəklənir və insanlar növbəti 7 ildə də Cənab İlham Əliyevi dövlət başçısı olaraq görmək istəyirlər. Qarşıdan gələn prezident seçkilərində də partiyamızın Sədri, Cənab İlham Əliyevin qələbəsi şübhə doğurmur. "Çünki ötən 15 il ərzində ölkəmizdə həyata keçirilən uğurlu siyasət xalqımız tərəfindən birmənalı tərzdə dəstəklənir", - deyən təşkilat sədri əlavə edib ki, Azərbaycan xalqı YAP-ın Sədri İlham Əliyevə dərin inam və etimad bəsləyir, qarşıdan gələn seçkilərdə fəal iştirak edərək, məhz Onun namizədliyini dəstəkləyəcək. O, seçiciləri qarşıdan gələn prezident seçkilərində fəal iştirak etməyə və partiyamızın namizədi İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən rayon şöbəsinin təbliğat qrupunun üzvləri Həsən Günəşli, Elza Orucova, Allahverdi Xudaverdiyev, Hüseyn Kərimov bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hər yerində abadlıq-quruculuq işləri gedib, bölgələrimizin siması dəyişib. Dövlət başçısının gördüyü işlər Ona xalqın inamını daha da gücləndirir. Qeyd olunub ki, ölkəmizdə sabitlik və əmin-amanlıq hökm sürür. İnkişaf, o yerdə baş verir ki, orada sabitlik olsun. Sabitlik və inkişaf baxımından da Azərbaycan dünyaya nümunədir. Bütün bu uğurların davamlı olması üçün seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Qəbələlilər artıq öz seçimlərini ediblər

Dünən Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatı rayonun Mədəniyyət Mərkəzində prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçi-



vəsində seçicilərlə görüş keçirib. Görüşdə rayonun müxtəlif idarə və müəssisələrindən 350 nəfər seçici iştirak edib. Görüşü giriş sözü ilə açan YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı Cənab İlham Əliyevin apardığı ardıcıl və sistemli islahatlar, həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə istər regionda, istərsə də bütün dünyada qazandığı uğurlardan danışıb. O bildirib ki, Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazanıb. YAP, Prezident İlham Əliyevin Sədrliyi ilə dövlətimizin inkişafı və xalqımızın əmin-amanlıq içində yaşaması uğrunda mühüm töhfələr verməkdədir. Bütün bunlar da xalqımızın partiyamızı dəstəkləyəcəyinə və onun namizədi Cənab Prezident İlham Əliyevə yekdilliklə səs verəcəyinə təminat verdiyini bildirib. Bütün bu qeyd olunan və digər uğurların davamı üçün hər kəsi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb.

YAP Qəbələ rayon təşkilatının təşviqat qrupunun üzvü Reyhan Məmmədova çıxış edərək, seçiciləri Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikası Prezidentliyinə namizəd Cənab İlham Əliyevin seçki proqramı ilə tanış edib. Təşviqat qrupunun digər üzvü Saleh Aslanov çıxışında Cənab İlham Əliyevin 2003-2018-ci illərdə gördüyü işlərdən danışdı, bu illər ərzində, Azərbaycanın hərtərəfli inkişafa nail olduğunu, qarşıda isə yeni hədəflərin olduğunu vurğuladı. Seçicilərdən Zərxanım Ağayeva, Malik Ağayev, Qalibə Məmmədova, Araz Əlməmmədov, Sevinc Babayeva, Qəmbər Qəmbərov, Əsilə Həşimova və Tofiq Şirinov bildiriblər ki, onlar artıq öz seçimlərini ediblər və 11 apreldə Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə səs verəcəklər.

## Cənab İlham Əliyev Müstəqil Azərbaycanın inkişafının qarantıdır!

Dünən YAP Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi rayonun İstisu və Sumağallı kəndlərində seçicilərlə növbəti görüş keçirib. Görüşü giriş sözü ilə YAP İs-






mayıllı rayon təşkilatının idarə heyətinin üzvü Valeh Salehov açaraq, qeyd etdi ki, Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 il ərzində vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində ciddi irəliləyişlər baş verib: "Əməkhaqları və təqaüdlər dəfələrlə artırılıb, gəlirlərin artımı müşahidə olunub və insanların həyat səviyyəsində müsbət göstəricilər qeydə alınıb. Həmçinin, yoxsulluğun aradan qaldırılması siyasətinin nəticəsi kimi, ölkəmizdə yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5 faizə endirilib. Ümumiyyətlə, bu gün Azərbaycanın iqtisadi potensialı Cənubi Qafqazın toplam iqtisadi potensialının 80 faizi civarındadır".

Tədbirdə çıxış edən yerli təbliğat qrupunun nümayəndəsi Zaur Muradov qeyd etdi ki, 15 il bundan əvvəl, proqnoz kimi səslənən məsələlər artıq reallığa çevrilib. Qazanılan nailiyyətlər Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının uğurla icrasına əsaslanır.

Tədbirdə çıxış edən İstisu kənd sakinləri İdris Əzizov, Cavanşir Xəlilov, Sumağallı kənd sakinləri Mahmud Şirinov və Arzu Mirzəyeva qeyd etdilər ki, ölkə Prezidenti əhalinin arzu və istəkləri ilə, bilavasitə maraqlanır, təklif və təşəbbüslərinin reallaşmasını, lazımi tədbirlərin görülməsini yerli idarəetmə orqanlarına əsas vəzifə kimi tapşırır: "Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə əldə olunan nailiyyətlər Azərbaycan dövlətinin qüdrətinin artmasında ifadə olunub. Azərbaycan iqtisadi inkişafına, sosial-siyasi sabitliyə, beynəlxalq müstəvidə əldə etdiyi nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli və əzəmətli bir dövlətə çevrilib".

Çıxış edənlər qeyd etdilər ki, bütün seçicilər, məhz Ulu Öndər Heydər Əliyevin siyasi kursunu dəstəkləmək üçün seçki məntəqələrinə gələrək, hamılıqla yalnız Cənab İlham Əliyevə səs verəcəklər.

## Sabunçu rayon seçiciləri ilə görüşlər uğurla davam edir

Dünən YAP Sabunçu rayon təşkilatı Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham








Əliyevin təşviqat-təbliğat kampaniyası çərçivəsində seçicilərlə görüş keçirmişdir.

Görüşü giriş sözü ilə YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva açaraq, qeyd etdi ki, son 15 ildə ölkəmizdə baş verən sosial-iqtisadi inkişaf Azərbaycanı dünyanın inkişaf etmiş ölkələrindən birinə çevirməkdədir. Ölkə başçısı Cənab İlham Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, bu gün ölkəmiz nəhəng infrastruktur layihələrinin həyata keçirildiyi mərkəzə çevrilib: "Azərbaycan dövləti artıq dünya dövlətləri içərisində etibarlı tərəfdaşdır. İmzalanan neft kontraktları ölkəmizi aparıcı neft ölkələrindən birinə çevirib. Dünyanın əksər dövlətlərində vətəndaş müharibələri, maliyyə böhranları baş verdiyi halda, ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür. Dünyanın aparıcı iqtisadi və maliyyə qurumları hazırda Azərbaycanın uğurlarını qeyd edir, bütün hesabatlarda ölkəmiz öncül mövqelərdən birini tutur. Bütün bunlar ölkə başçısı Cənab İlham Əliyevin Azərbaycan dövlətinin və xalqının rifahı naminə apardığı alternativsiz siyasətin məntiqi nəticəsidir".

Rayon təşkilatı sədri çıxışının sonunda bütün seçiciləri Azərbaycanı daha da yüksəklərə qaldıracaq Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Tədbirdə çıxış edən Milli Məclisin deputatları Dilarə Cəbrayılova, Eldar Quliyev, İqtisad Universitetinin rektoru Ədalət Muradov, rayon seçki qərargahının üzvü Nəriman Salmanov qeyd ediblər ki, Prezidenti İlham Əliyevin rəhbərliyi dövründə əldə olunan uğurlar ölkəmizin parlaq inkişafını təmin edib. Ən müasir tələblərə cavab verən yeni məktəblər, səhiyyə ocaqları və körpülər tikilib. Görülən işlərin Azərbaycan insanının dövlətə və onun rəhbərinə etimadını daha da artırır. Bütün bu reallıqlara əsasən, çıxış edənlər Sabunçu rayon seçicilərini Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

# Özəl sektorun nümayəndələri və sahibkarlar Azərbaycanın inkişafı naminə Cənab İlham Əliyevə səs verəcəklər

## *“Gəncə Körpü Tikinti-2” ASC-nin Direktorlar Şurasının sədri Aqibət Məmmədovun yap.org.az-a müsahibəsi*

***- Aqibət müəllim, aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Seçkiöncəsi mühit demokratiklik və şəffaflığı ilə xarakterizə olunur. Eyni zamanda, Azərbaycan bu seçkilərə də sabitlik, tərəqqi və yüksəliş fonunda gedir. Bu haqda nə söyləyə bilərsiniz?***

- Azərbaycan bütün seçkilərdə özünün demokratik dəyərlərə sadiqliyini nümayiş etdirib. Ölkəmizdə seçkilər hər zaman şəffaf və demokratik şəraitdə baş tutur, bunu təmin edən əsas amil isə dövlətin güclü və qəti siyasi iradəsidir. Müxtəlif ölkələr və beynəlxalq təşkilatlar Azərbaycanın seçki təcrübəsini yüksək qiymətləndirir, müsbət fikir və rəylər ifadə edirlər.

Azərbaycanın bu seçkilərə də sabitlik, tərəqqi və yüksəliş fonunda getməsi məsələsinə gəlincə, ölkəmizin iqtisadi inkişaf göstəriciləri olduqca pozitivdir və müxtəlif beynəlxalq reytinq institutları, araşdırma mərkəzləri tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, Azərbaycanın iqtisadi qüdrətinin artmasını təmin edib. Həyata keçirilən iqtisadi siyasətin nəticəsi kimi, ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılıb, islahatlar davam etdirilib. İqtisadiyyatın diversifikasiyasına nail olmaq üçün həyata keçirilən tədbirlər və əldə edilən nailiyyətlər yeni inkişaf perspektivlərinin meydana çıxmasını şərtləndirib.

Dünyada maliyyə-iqtisadi böhranın olduğu şəraitdə Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafını təmin edib, nəzərdə tutulan bütün proqramlar, o cümlədən infrastruktur layihələri müvəffəqiyyətlə icra olunub.

***- Siz infrastruktur layihələrinin reallaşdırılmasından bəhs etdiniz. Məlumdur ki, respublikanın bütün bölgələrində yeni yollar çəkilib və yenidən qurulub, çoxlu sayda körpülər, yol qovşaqları tikilib, infrastruktur daha da yaxşılaşdırılıb. Bu istiqamətdə görülən işləri necə qiymətləndirirsiniz?***

- Qeyd etdiyiniz kimi, infrastruktur quruculuğunun miqyası olduqca genişdir, bütün ölkəni əhatə edir. Ölkəboyu yeni yollar çəkilir və yenidənqurma işlər aparılır, körpülər və yol qovşaqları inşa olunur. Ötən müddət ərzində ölkəmizdə müxtəlif sahələri əhatə edən infrastruktur layihələrinin



uğurla reallaşdırılması təkcə paytaxt Bakının deyil, eyni zamanda, respublikamızın bölgələrində də inkişaf göstəricilərinin qeydə alınmasını şərtləndirib. Yol infrastrukturunun yenilənməsi yönündə davam etdirilən işlər də bu baxımdan böyük əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qarşıdakı dövrdə bütün kənd yollarının təmirinə nail olmaqla bağlı ciddi vəzifə müəyyən olunub. Eyni zamanda, respublika rayonlarını əhatə edən avtomobil yollarının tikintisi, yenidən qurulması ilə bağlı işlər davamlı xarakterə malikdir. Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransdakı nitqində bu məsələyə toxunaraq deyib ki, avtomobil yollarının tikintisi infrastruktur layihələri arasında önəmli yer tutan sahədir. Dövlətimizi başçısı infrastruktur layihələrini həm iqtisadi, həm sosial sahə kimi xarakterizə edib. Həqiqətən də elədir, çünki bu, insanların rahatlığına xidmət edir. Bu, həmçinin turizm imkanlarının artırılmasına və sənaye istehsalının genişləndirilməsinə töhfə verir. Son 14 il ərzində on min kilometrdən artıq avtomobil yollarının çəkilməsi, yüzlərlə körpü keçidlərinin, yol qovşaqlarının tikilməsi bu sahədə görülən işlərin miqyası və əhəmiyyətini göstərir. Ən əsası, bu proses davamlı xarakter daşıyır. Dövlətimizin başçısının müvafiq sərəncamlarına uyğun olaraq bölgələrdə respublika əhəmiyyətli, kəndlərarası, qəsəbələrarası avtomobil yolu, eləcə də körpü və yeraltı piyada keçidlərinin layihələri üzrə tikinti və yenidənqurma işləri uğurla davam etdirilir.

***- Bəs rəhbərlik etdiyiniz “Gəncə Körpü Tikinti-2” ASC-nin ölkəmizdə yol infrastrukturunun yenilənməsi və inkişafı ilə bağlı fəaliyyəti, bu prosesə töhfələri barədə nə söyləyə bilərsiniz?***

- Əvvəla qeyd edim ki, “Gəncə Körpü Tikinti-2” ASC 1975-ci ildə 2 saylı Körpü Tikinti İdarəsi kimi yaradılmışdır. 2001-ci ildən Səhmdar Cəmiyyət kimi fəaliyyət göstərir. Müəssisənin 43 illik istehsalat təcrübəsi vardır. ASC respublika ərazisində körpü keçidlərinin, yolötürücülərinin, yeraltı keçidlərin, suötürücü borularının və avtomobil yollarının, eləcə də digər süni qurğuların tikintisi ilə məşğul olan müəssisələrdən biridir. Bundan başqa, şəhər yollarında və avtomobil magistrallarında abadlıq işlərini, müxtəlif tikinti obyektlərində monolit və yığma dəmir-beton konstruksiyalarının tikinti-quraşdırma işlərini də həyata keçirir. Müəssisə rəhbərliyinin başlıca məqsədi elmi-texniki tərəqqinin son nailiyyətlərindən istifadə edərək infrastruktur quruculuğuna töhfə verməkdir. Bu zamana qədər “Gəncə Körpü Tikinti-2” ASC tərəfindən xeyli sayda mühüm əhəmiyyətə malik körpü və yol keçidləri inşa olunub, respublika və beynəlxalq əhəmiyyətli avtomobil yolları çəkilib. Böyük “İpək Yolu” layihəsinin tikintisində, ölkənin ən böyük infrastruktur layihələrindən biri olan Oğuz-Qəbələ- Bakı su xəttinin çəkilişində “Gəncə Körpü Tikinti-2” ASC yaxından iştirak edib. Bundan başqa, Bakı şəhərində Babək prospekti ilə Mikayıl Əliyev və Məhəmməd Hadi küçələrinin kəsişməsində uzunluğu 2 km-dən artıq olan yolqovşağı kompleksi, Bakı şəhərində Ziya Bünyadov ilə Atatürk prospektlərinin kəsişməsində yolötürücüsü, Bakı şəhərində Ziya Bünyadov prospekti ilə Əhməd Rəcəbli küçəsinin kəsişməsində yolötürücüsü, Bakı şəhərində Koroğlu dairəsi H.Əliyev Beynəlxalq Hava Limanı avtomobil yolunun yenidənqurulması işləri üzrə Suraxanı və Sabunçu rayonu ərazilərində körpü keçidləri son illər ASC-nin inşa etdiyi obyektlərin bir qismidir. Bu işlər Azərbaycanın müxtəlif bölgələrində də müvəffəqiyyətlə davam etdirilib. Gədəbəy rayonu İsalı kəndində 180 şagird yerlik tam orta məktəb binası, Gəncə şəhərində “İmamzadə” Dini Kompleksinin yenidənqurulması və ətrafında abadlıq işləri, Gəncə şəhər Təhsil İdarəsinin yeni inzibati binasının və Gəncə şəhər 2 saylı, 240 yerlik uşaq bağçasının tikintisi son illər kollektivimizin inşa etdiyi obyektlərin bir qismidir.

Əlbəttə, Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq iqtisadiyyatın liberallığının, əlverişli biznes mühitinin və rəqabət qabiliyyətliliyin təmin olunması hər bir qurumun ölkənin inkişafına xidmət edən layihələrini uğurla yerinə yetirməsinə imkan yaradır. Bu isə həm sahibkarlığın inkişafını təmin edir, həm də iqtisadi inkişaf göstəricilərinin artmasını şərtləndirir.

***- Aqibət müəllim, dövlət başçısı tərəfindən sahibkarlara və bütövlükdə özəl sektor təmsilçilərinə yüksək diqqət və qayğının göstərilməsi özünü seçkilərin nəticələrində necə göstərəcək?***

- Azərbaycan Prezidenti İlham Əliyev bütün sahələrin inkişafını hər zaman diqqət mərkəzində saxlayır. İqtisadiyyatın inkişafına və əhalinin həyat şəraitinin yaxşılaşmasına xidmət edən layihələr məhz möhtərəm dövlət başçısı İlham Əliyevin iradəsi əsasında reallaşdırılır. Cənab İlham Əliyev əlverişli biznes mühitinin formalaşmasına, özəl sektorun və sahibkarlığın inkişafına xidmət edən mühüm qərarlar qəbul edir. Bu isə Azərbaycanın gələcək inkişaf naminə qarşıya qoyulan strateji əhəmiyyətli hədəflərə çatmağa imkan verir.

Bütün bunları nəzərə alaraq birmənalı şəkildə deyə bilərəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən özəl sektorun inkişafına böyük diqqət və qayğının göstərilməsi, bu istiqamətdə ardıcıl islahatların həyata keçirilməsi iş adamları - biznes sektorunun nümayəndələri tərəfindən yüksək qiymətləndirilir. Sahibkarlar və özəl sektorun digər nümayəndələri bu diqqət və qayğının, ölkəmizin inkişafının davamlı olmasını istəyir. Bu səbəbdən inanıram ki, aprelin 11-də Azərbaycan xalqının alternativsiz lideri İlham Əliyevə səs verəcəklər. Bu seçim Azərbaycanın gələcək inkişafını təmin etməklə yanaşı, ölkəmizin iqtisadi qüdrətinin artmasını və inkişaf yolunda yeni zirvələr fəth etməsinə səbəb olacaq.

## Müşahidəçi və məşvərətçilər üçün seminar keçirilib





***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində iştirak edəcək müşahidəçi və məşvərətçilər üçün seminar keçirilib. Seminarda YAP Nəsimi rayon təşkilatının ərazi ilk partiya təşkilatlarının sədrləri də iştirak ediblər.***

Seminarı Milli Məclisin deputatı, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı açaraq, ölkəmizdə bugünədək keçirilən müxtəlif seçki kampaniyaları haqqında ətraflı məlumat verib. Bildirib ki, demokratik dəyərlərin bərqərar olduğu ölkəmizdə şəffaf, azad və ədalətli seçki ənənəsi bir çox ölkələr üçün nümunəy? çevrilib. M.İbrahimqızı müşahidəçi və məşvərətçilərin vəzifə, öhdəlik və hüquqları haqqında Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, geniş məlumat verib.

Seminarın sonunda tədir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**NƏZAKƏT**






# Xalqın qəti qərarı İlham Əliyevdir

*AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəylinin yap.org.az-a müsahibəsi*

***- İsa müəllim, məlum olduğu kimi aprelin 11-də Azərbaycanda növbəti prezident seçkiləri keçiriləcək. Sizcə, ölkəmiz bu seçkilərlə hansı uğurlarla gedir?***

- Müstəqil Azərbaycan dövləti özünün yeni tarixinin məsuliyyətli və şərəfli bir dövrünü yaşayır. Varlığını Dünya Birliyində isbat etmiş müstəqil dövlətimiz mühüm siyasi-ideoloji və iqtisadi-mədəni təməllər üzərində inkişaf edərək yeni hədəflərə doğru sürətlə addımlayır. Artıq hərtərəfli şəkildə inkişaf etməkdə davam edən müstəqil Azərbaycan dövləti dünya birliyində xüsusi çəkiyə malik olan əhəmiyyətli bir ölkə olaraq qəbul olunur. İndi nəinki regionun, ümumiyyətlə qlobal mənada dünyanın ən müxtəlif problemlərinin həllində Azərbaycan Respublikası mötəbər söz sahibidir. Bu gün Azərbaycan Avropa ilə Asiyanı əlaqələndirən ölkə kimi dünyanın Qərb siyasətində də, Şərq tərəfdaşlığında da əsas tarazlıq nöqtələrindən biridir. Müstəqillik qazanmış yeni ölkələr sırasında bütün mənalarda Azərbaycan müstəqil dövlət kimi inkişaf etməyin və səmərəli şəkildə fəaliyyət göstərməyin ən müasir modelidir.

Müstəqil Azərbaycan qısa müddətdə inkişaf etməkdə olan ölkələrin cərgəsindən inkişaf etmiş dövlətlərin sıralarına doğru inamla irəliləməkdədir. Bütün bu mühüm tarixi nailiyyətlərin əldə olunmasının əsas şərtlərindən biri ölkəmizdə siyasi varisliyin təmin olunması, ardıcıl və sistemli dövlət quruculuğunun uğurla həyata keçirilməsi ilə əlaqədardır. Demokratiya pərdəsi altında əslində böyük güclərin maraqlarına xidmət edən nəhəng siyasi eksperimentlərin həyata keçirilməsinin yaxın və uzaq ölkələrdə yaratdığı acınacaqlı vəziyyət, dərin böhran və münaqişələr müstəqil dövlətçiliyin Azərbaycan modelinin danılmaz reallıqlarını bir daha diqqət mərkəzinə çəkir. Bu böyük və sürətli inkişafın təməlində Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizdə formalaşdırdığı möhkəm dövlətçilik təməlləri mühüm yer tutur. Müstəqil dövlətçiliyin Heydər Əliyev təlimi Azərbaycan Respublikasının böyük inkişafının sınaqlardan çıxmış strategiyasıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev siyasi hakimiyyətdə olduğu 15 il ərzində Azərbaycan Respublikasını təməl dövlətçilik prinsipləri zəminində və ardıcıl yaradıcı fəaliyyət əsasında yenidən qurub, sürətlə və hərtərəfli şəkildə inkişaf etdirərək yeni mərhələyə çatdırmağın mümkünlüyünü qəti şəkildə isbat etmişdir. Keçən dövr ərzində aparılmış məqsədyönlü siyasət nəticəsində müstəqil Azərbaycan möhkəm ictimai-siyasi sabitliyə, inkişaf etmiş və modernləşdirilmiş iqtisadiyyata, güclü hərbi-sənaye kompleksinə, ən əsası isə davamlı milli-mənəvi dəyərlərə malik olan qüdrətli dövlət səviyyəsinə çatdırılmışdır.



***- Prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevdir. Partiyamızın namizədinin seçkilərdə şansını necə dəyərləndirirsiniz?***

- Prezident İlham Əliyev artıq geniş mənada dünyada qəbul olunmuş görkəmli siyasi liderdir. Dünya təcrübəsindən görünür ki, bir çox dövlət başçıları yalnız ölkəyə ümumi rəhbərlik vəzifəsini yerinə yetirməklə kifayətlənməli olur, onların bir çoxunun ampluası praktik rəhbərlikdən çox da uzağa gedə bilmir, yaxud da hər hansı bir istiqamətin inkişaf etdirilməsi ilə səciyyələnir. Prezident İlham Əliyev isə bacarıqlı, mükəmməl, qurucu lider olmaqla bir sırada həm də geniş, qlobal dünyagörüşə, analitik təhlil bacarığına, praqmatik baxışlara, hərtərəfli bacarıqlara malik olan mükəmməl dövlət xadimidir. O, mövcud siyasi reallıqları inkişafda olan qlobal ictimai proseslərlə böyük məharətlə uzlaşdırmağı bacarır. Ona görə də siyasi gerçəklikləri dərindən, ətraflı və sistemli şəkildə dəyərləndirəndə də, yaxın və uzaq gələcəkdən söz açanda da həmişə nikbin və realist görünür və daim irəliyə baxır.

Ölkəmizin başçısı İlham Əliyev miqyasına görkəmli bir dövlət xadimi kimi Cənubi Qafqaz və ya ümumiyyətlə Qafqaz müstəvisində yanaşma mövcud siyasi reallığı qətiyyən ifadə etmir. Fikrimizcə, yeni siyasi lider kimi İlham Əliyev səviyyə etibarilə postsovet məkanının sədlərini və miqyasını da çoxdan aşmışdır. Hələ Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinə başçılıq edəndə yeni təfəkkür sahibi kimi parlaq çıxışlar edib, bəyanatlar verdiyi illərdə o, Avropa evi səviyyəsində düşünmək, mesajlar vermək potensialını nümayiş etdirən bir siyasətçi kimi dərk olunmuşdu. Prezident kimi İlham Əliyevin siyasi-ideoloji postulatı artıq böyük dövlətlərin rəhbərlərinin, yaxud çoxillik təcrübəyə malik qəbul olunmuş siyasi xadimlərin səviyyəsi ilə bir sırada dayanır.

Dövlət rəhbərimiz böyük siyasətdə milli təfəkkürlə bəşəri düşüncəni birləşdirən, real gerçəkliklə qlobal baxışları uzlaşdıran görkəmli siyasi liderdir. Buna görədir ki, İlham Əliyevin siyasi baxışları dərin nəzəri səviyyəsi, aydın məntiqi, fəlsəfi çəkisi və praqmatik xarakteri ilə səciyyələnir. Möhtərəm Prezidentin müxtəlif məqamlardakı parlaq nitqləri zamanı müdrikliklə ifadə etdiyi yetkin siyasi tezislər dərin mənalı sərrast aforizmlər kimi səslənir. Böyük siyasətdə aforizm səviyyəsində düşünmək və özünü ifadə etmək yalnız və yalnız ən təcrübəli, uzun yol keçmiş, çox səviyyəli, böyük məktəblər yaratmış siyasətçilərə nəsib ola bilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsl siyasətçiyə məxsus olan belə uca məqamı fəth etmək vəzifəsinin öhdəsindən hələ cavan yaşlarında ikən bacarıqla gəldiyini isbat etmişdir.

***- Prezident İlham Əliyevin siyasəti həm Azərbaycan məkanında, həm də beynəlxalq müstəvidə konkret məsələlərin, aktual problemlərin həllinə istiqamətləndirilmiş aşkar siyasi fəaliyyət kimi mütəmadi olaraq yeniləşir və zənginləşir...***

- XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini, irəliyə doğru inkişafın üfüqlərini aydın görən, siyasi müstəvidə yeni istiqamətlər açan, yol göstərən görkəmli dövlət xadimi İlham Əliyev möhkəm siyasi iradəyə və hərtərəfli yüksək hazırlığa malikdir. Bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi düşüncəsinin və mühüm idarəetmə məharətinin olması dövlətin normal inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi və vətənpərvərliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır.

Böyük və professional bir siyasətçinin dövlət başçısı kimi uğurlu fəaliyyəti təkcə ölkənin və xalqın deyil, elə siyasətin də xeyrinədir. Çünki lokal mənada da, qlobal səviyyədə də faydalı, gərəkli olan siyasət özünüifadə, yaxud özünütəsdiq baxımından münasib meydan tapa bilməyəndə bəzən mücərrəd, utopik, yaxud havadan asılı olan nəzəri-ideoloji təlim olaraq qalır. Ancaq böyük siyasətçi üçün siyasi fəaliyyət dövlətçilik işinin üzvi tərkib hissəsinə çevriləndə daim yeniləşir, təkmilləşir, aşkarlanır və inkişaf edir. Prezident İlham Əliyevin siyasəti də həm Azərbaycan məkanında, həm də beynəlxalq müstəvidə konkret məsələlərin, aktual problemlərin həllinə istiqamətləndirilmiş aşkar siyasi fəaliyyət kimi mütəmadi olaraq yeniləşir və zənginləşir. Ölkə başçımızın qəti siyasi mövqeyi onun ölkəni irəli aparmaq, cəmiyyəti daim inkişaf etdirmək yollarındakı siyasi iradəsinin real təzahürüdür. Bu mənada inkişafda olan müstəqil Azərbaycanda əldə olunan möhtəşəm nailiyyətlər və beynəlxalq miqyasda ölkə ilə əlaqədar aparılan gündəlik düşünülmüş məqsədyönlü və ardıcıl iş, əldə olunan zəngin təcrübə tükənməz ideya mənbəyi kimi İlham Əliyev siyasətinin aktuallığını və müasirliyini təmin edir.

***- Azərbaycan xalqı Prezident İlham Əliyevin simasında ilk növbədə əsl, həqiqi, geniş dünyagörüşə, sağlam və aydın məntiqi təfəkkürə malik əsl dövlət xadimini görür və yüksək dəyərləndirir. Bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycan xalqı Prezident İlham Əliyevin simasında ilk növbədə əsl, həqiqi, geniş dünyagörüşə, sağlam və aydın məntiqi təfəkkürə malik əsl dövlət xadimini görür və yüksək dəyərləndirir.

Müasir tarixi mərhələnin meydana çıxardığı mühüm siyasi-ictimai gerçəkliklərin iqtisadi-hərbi proseslərin, ideoloji-etnik problemlərin mövcud siyasi kursun işığında yenidən dəyərləndirilməsini tələb etdiyi məqamlarda Prezident İlham Əliyev istənilən məsələyə yaradıcı münasibət bəsləməyi, yeni müstəvidən yanaşmağı müvəffəqiyyətlə həyata keçirir. Bu mənada İlham Əliyev daim inkişafda olan müstəqil Azərbaycan dövlətçiliyi təlimini yeni tarixi epoxada qətiyyətlə irəli aparan qüdrətli liderdir.

Məhz bütün bunlara görə O, görkəmli dövlət xadimi və böyük siyasi xadim səviyyəsinə yüksəlmiş, geniş şöhrət və nüfuz qazanan Prezident İlham Əliyev məqamına çatmağı bacarmışdır.

Müstəqillik illərində Azərbaycanda ölkə maraqlarına uyğun məqsədyönlü humanitar siyasət geniş şəkildə həyata keçirilmişdir. Buna görədir ki, ölkəmizdə milli maraqlarla dövlətçilik mənafeləri bir-birini tamamlayır və daha da möhkəmləndirir. Milli-mənəvi dəyərlər, azərbaycançılıq idealı hər bir ölkə vətəndaşı üçün ali meyarlardır. Azərbaycançılıq - milli mədəniyyət və ədəbiyyatın başlıca mahiyyəti və əsas inkişaf istiqamətidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən elm siyasəti Azərbaycan elminin və milli ziyalılığın inkişafına yeni bir tarixi mərhələnin formalaşması ilə nəticələnmişdir. Elm, ədəbiyyat və incəsənət xadimlərinə göstərilən yüksək qayğı bu istiqamətlərdə yeni inkişafa stimul vermişdir. Prezident İlham Əliyevin apardığı uğurlu elm siyasəti bütün sahələrdə, xüsusən də humanitar sahədə yeni vətənpərvər nəsilləri meydana çıxarmışdır. Dövlət başçısı tərəfindən təsdiq olunmuş “Elm haqqında” Azərbaycan respublikasının Qanunu ölkə elminin cəmiyyət həyatı, istehsal prosesləri və sahibkarlıq mühiti ilə üzvi əlaqədə inkişaf etdirilməsinə geniş meydan açmışdır.

Müstəqil Azərbaycan Respublikası ölkəmizin çoxəsrlik tarixində bütün sahələr üzrə ən yüksək inkişaf mərhələsinə çatmışdır.

Azərbaycanın yeni tarixi mərhələdəki hərtərəfli və sürətli inkişafı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin konkret əməli nəticəsidir.

İlham Əliyev - yeni mərhələdə Azərbaycan ölkəsinin və cəmiyyətimizin müasirləşdirilməsinin baş memarıdır.

İlham Əliyev - yeni siyasi təfəkkürə və yaradıcı yanaşmalara malik novator dövlət xadimidir.

Xalq amili, milli mənafe, ölkə maraqları İlham Əliyev üçün müqəddəs meyarlardır.

İlham Əliyev - yaxın və uzaq gələcəyi, bütün reallıqları incəliklərinə qədər görən və məharətlə proqnozlaşdırmağı bacaran böyük dövlət xadimidir.

Ölkəmizin və xalqımızın bundan sonrakı mərhələdə İlham Əliyev kimi geniş formatda, böyük masştabda düşünən, xalqına və dövlətinə ürəkdən bağlı olan, yüksək səviyyəli və enerjili dövlət xadiminə ciddi ehtiyacı vardır.

Hazırda Azərbaycanın yaxından iştirakı, maraqları təmin olunmadan, nəzərə alınmadan regionda heç bir problemin həllindən danışmaq olmaz. Dünyada belə yüksək nüfuzu ölkəmizə Prezident İlham Əliyev qazandırmışdır.

Bütün bunlara görə ölkənin rəhbərini seçmək üçün Azərbaycan xalqının yenidən düşünüb-daşınmasına xüsusi bir ehtiyac yoxdur. Xalqımız Prezident seçkisi üçün artıq özünün qəti seçimini etmişdir. Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının Qurultayında çoxmilyonlu həmkarlar təşkilatı üzvlərinin adından Prezident İlham Əliyevin yenidən ölkə rəhbəri seçilmək üçün yekdilliklə namizəd göstərilməsi dövlət başçımıza olan ümumxalq etimadının real təntənəsidir. Yeni Azərbaycan Partiyasının Qurultayında da siyasi cəbhədəki həmfikirlərimiz özlərinin vahid namizədlərini irəli sürmüşlər: İlham Əliyev! Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıdakı seçkilərdə Azərbaycan xalqının mütləq əksəriyyətinin vahid namizədidir. Beynəlxalq birlik də, Dünya Azərbaycanlıları da ölkə Prezidentliyində İlham Əliyevin namizədliyinə ürəkdən dəstək verirlər.

Xalqımız Prezident seçkilərinə Prezident İlham Əliyevin rəhbərliyi ilə yaradılmış yeniləşmiş möhtəşəm azərbaycan boyda böyük hesabatla gedir. Müasir Azərbaycan haqqında hesabatın müəllifi Azərbaycan xalqının lideri İlham Əliyevdir.

Ona görə də ölkənin və xalqımızın qarşıdakı Prezident seçkilərinə gedərkən qəlbinin dərinliklərindən gələn yalnız bir qərarı vardır: İlham Əliyev!

Uzaqgörən, müdrik və qədirbilən xalqımız növbəti dəfə də bu mühüm və qəti seçiminin böyük bəhrəsini görəcəkdir. İndiki müdrik seçimin ən böyük nəticəsi daha güclü və inkişaf etmiş müstəqil Azərbaycan dövləti və yüksək xoşbəxt həyat şəraiti qazanmaq imkanları əldə edən, birlik və bərabərlik nümayiş etdirən Azərbaycan xalqı olacaqdır.

# Satqın və xəyanətkar elə Cəmil Həsənlinin özüdür

***Seçkilər yaxınlaşdıqca, müxalifət düşərgəsinin aqressivliyi daha da artır və "Milli Şura"nın sədri Cəmil Həsənlinin timsalında radikallar yersiz və əsassız ittihamlarla gündəmə gəlməyə çalışırlar. "Milli Şura" sədri özünü bir siyasətçi, tarixçi kimi qələmə verməyə və hadisələri qiymətləndirməyə cəhd edirsə də, əksinə, siyasi müstəvidə naşı olduğunu bir daha nümayiş etdirir.***



"Şura" sədri indi də prezidentliyə namizədlərin hamısını hakimiyyətin adamı adlandırır. Belə məlum olur ki, öz sıralarında təmsil olunmayanlar əqidəsindən asılı olmayaraq, onun gözündə satqın görünür. Namizədlərin hər birini xəyanətkar kimi xarakterizə etməyə çalışan C.Həsənli, onları iqtidara xidmət etməkdə, riyakarlıqda ittiham edir. Hakimiyyəti isə, həmişə olduğu kimi, arqumentsiz və əsassız olaraq, insan hüquqlarını pozmaqda və diktatura rejimi qurmaqda günahlandırır.

Əslində, "Milli Şura" sədri kimi tanıdığımız bu adam səlahiyyəti olmayanın biri, AXCP sədri Əli Kərimlinin sözçüsü rolunda çıxış edən fiqur olduğu ictimaiyyət üçün gizli deyil. Qondarma "şura"nın qondarma sədrinin mahiyyətini xarakterizə etdikdə, çox məqamlara rast gəlmək olar və bu məqamlar onun əsl simasını ortaya qoyur. Kimdir bu C.Həsənli və nə vaxtdan siyasət adamı olub? Nə vaxtdan politoloq kimi siyasi səhnədə fəaliyyət göstərir və bu sədrin fəaliyyətində hansı çalarlar, onu digərlərindən fərqləndirir? Yaxud onun müxalifət adından danışmağa, siyasətçi kimi rəy verməyə və qiymətləndirməyə nə dərəcədə haqqı çatır?

## Dublyor aktyor seçilən Cəmil Həsənli bu rola alışdığından, özünü az qala siyasi xadim hesab edir

Cəmil Həsənli heç vaxt siyasətçi kimi qəbul edilməyib. Yalnız 2005-ci ildə partiyanın qərarına tabe olmayıb, parlamentdə oturduğuna görə, partiyadan qovulan orta statistik tarixçi-alim kimi yadda qalıb. 2013-cü ildə "Milli Şura"nın sədrliyinə onun namizədliyi verilərkən, Azərbaycanın siyasi arenasında Cəmil Həsənlinin adını tanıyan yox idi. Müsavat, AXCP və "Milli Şura" onu siyasətə gətirdiyi zaman bu ad ortaya çıxdı və C.Həsənli də öz üzərinə öhdəlik götürdü ki, seçiləcəyi təqdirdə, 2 il müddətinə parlament seçkiləri keçirəcək və daha sonra prezidentlikdən istefa verəcək. Hətta siyasətdən birdəfəlik gedəcəyinə də söz verən Həsənlinin bu sözünü də öhdəlik hesab etmək olar. "Milli Şura"nın sədri postuna siyasətçi kimi deyil, Rüstəm İbrahimbəyovun dublyor aktyoru kimi seçilən C.Həsənli bu rola elə alışdı ki, artıq özünü az qala böyük siyasi xadim hesab etməyə başladı. "Şura" sədrinin eyforiyasını hardasa başa düşmək olar və Əli Kərimlinin atmosferinə, tabeçiliyinə düşdüyü üçün, hərdən elə bilir ki, kiməsə müxalifət lisenziyası belə verə bilər, yaxud kimi gəldi xəyanətkarlıqda ittiham edə bilər. Amma reallıq bundan ibarətdir ki, onun fikri, hətta müxalifətdə təmsil olunanlar arasında belə heç kim üçün önəmli deyil və nə düşündüyünə, hadisələri necə qiymətləndirdiyinə məhəl qoyan yoxdur.

C.Həsənli əgər nə vaxtsa iki ingilis və bir amerikalı ilə görüşübsə, bu, o demək deyil ki, bütün dünyanın nəzəri onun üzərindədir. Kimlərinsə, yəni əcnəbilərin buyruq qulu ola bilər, tapşırıqlarını mütiliklə yerinə yetirə bilər, amma bu, onun nüfuzuna, söz sahibi və siyasətçi olmasına qəti dəlalət etmir. Bəzən vasitəçi, bəzən isə Kərimlinin poçtalyonu rolunda səfərə yollanan "şura" sədri kiminsə maraqlarına xidmət edərkən, özünü siyasi xadim və diplomat hesab edirsə, bərk yanılır. Uzaqbaşı buyruq qulu, marionet təsiri bağışlayan bu adamın siyasi kimliyi elə bu əl buyruqçuluğu çərçivəsindən kənara çıxası deyil.

## Namizədlər "şura" sədrinin özünü mövqesizlikdə, satqınçılıqda və hətta ikiüzlülükdə ittiham edə bilər

Görünən kəndə bələdçi lazım deyil və istər Cəmil Həsənlinin, istər Əli Kərimlinin kimliyini tanımayan, istərsə də "Milli Şura"nın nə olduğunu bilməyən yoxdur. "Şura" sədri, əslində, tarixçidir və bu baxımdan, arxivlərdən tarixi faktları toplayıb bir kitab kimi çap edə bilərsə də, siyasi səhnəni analiz etmək iqtidarında deyil. Eyni zamanda, onun situasiyanı dəyərləndirmək, vəziyyətə uyğun addımları müəyyənləşdirmək, yeni fikirlər demək, təkliflərlə çıxış etmək qabiliyyətindən söhbət belə gedə bilməz. Bu mənada, Həsənlinin debatlar, namizədlər barədə dediklərinə məhəl qoyan yoxdur və fikirləri kiminsə diqqətini belə cəlb edəsi də deyil.

C.Həsənli deputat olduğu dönəmdə də eyni iqtidar və eyni Mərkəzi Seçki Komissiyası idi, indi də eynidir. Amma bu gün seçkiyə gedənləri sədr satqın adlandırır. 2000-2010-cu illərdə C.Həsənli deputat olub, indi isə seçkiyə qatılanları ittiham edir. Xronoloji ardıcıllıq sübut edir ki, "şura" sədrinin mövqeyində heç bir tutarlı arqument, məntiq belə yoxdur. Əgər ittiham etmək gərəkirsə, hamı yekdilliklə C.Həsənlini ittiham edə, onun özünü mövqesizlikdə, satqınçılıqda, hətta ikiüzlülükdə də günahlandıra bilər. "Şura" sədrinin ittiham etdiyi namizədlər hamısı bir nəfər kimi Həsənliyə onun fəaliyyətini, hakimiyyətin kölgəsində dolandığı, dönədönə təriflər yağdırdığı günlərini xatırlada bilər və ittihamlarının yalnız özünə şamil olunduğunu sübut edə bilərlər. Doğrudan da, satqın və xəyanətkar elə Cəmil Həsənlinin özüdür.

Radikalların prezident seçkisi ilə əlaqədar mövqeyi aqressiv olmaqla yanaşı, münasibəti də yanlış, əsassız və məntiqsizdir. İndidən başa düşdükləri, qəbul etdikləri məğlubiyyətə don geyindirmək üçün müxtəlif bəhanələr uydurmaq, qaçılmaz məğlubiyyəti sığortalamaq üçün cürbəcür vasitələrə əl atmaq köhnə adətləridir. Lakin bu ənənələr daim məntiqsiz yanaşma ilə xarakterizə oluna bilər. Belə ki, 2008-ci ildə seçkiləri boykot edənlərin 2013-cü ildə seçkiyə qatılması, yenidən 2018-ci ildə boykot etmək ciddi-cəhdləri məntiqsizliyi təsdiq edir. Çünki eyni şərtlərlə keçirilən prosesdə gah iştirak edir, gah da boykot edirlərsə, buna başqa nə ad vermək olar? Bu məntiqsiz yanaşma təkcə Həsənliyə deyil, bütün boykot qərarı verənlərə şamil olunur. Əgər seçki həmin seçki, onu keçirən də həmin qurumdursa, müxalifət də bu seçkiyə gah qatılır, gah da boykot bəhanəsi ilə qatılmaqdan boyun qaçırırsa, deməli, problemi özlərində axtarmalı, özlərinin sağlam düşüncə sahibi olmadıqlarını və sağlam rəqabət aparmadıqlarını etiraf etməlidirlər.

***İnam HACIYEV***

---



# Məğlubiyyəti hiss etdirən iybilmə...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***"Prezident seçkilərinə sayılacaq günlər qalır" demək olar ki...Ancaq diqqət çəkən məqamlardan biri və ən vacibi də budur ki, dağıdıcı müxalifət zaman daraldıqca daha da aqressivləşir, bəlli ictimai qınaqlardan nəticə çıxarmamaqla yanaşı, daxilindəki çirkablı hisslərini lap çox üzə çıxarmış olur. Misal üçün, sosial şəbəkə vasitəsi ilə çıxış edən və necə deyərlər, "kişilik" mübarizəsini" yalnız virtual məkan çərçivəsində aparan milli xəyanətkarlar toplumu hələ də eyni üsullarında qalmaqda davam edirlər. Bu faktor isə, belə deməyə əsas verir ki, qarşı tərəfin məqsədi aydındır - heç bir normal təklifə, ağsaqqal-qarasaqqal sözünə məhəl qoymadan tərbiyəsizliklərini və s. arzuolunmaz davranışlarını davam etdirmək...***

Başqa tərəfdən, "Milli Şura"nın təyin etdiyi növbəti mitinqlə bağlı klaviatura arxasından qalxıb, FB-nin kamerası arxasına keçən və müsahibə verən AXCP sədri Əli Kərimli öncəki çıxışlarından fərqlənməyən çağırışlar edib və üstəlik, iddia irəli sürüb ki, demə "hakimiyyət seçki debatları vasitəsi ilə xalqı təhqir edirmiş" (???!!!-R.R.). Heç bir sübuta, dəlilə söykənməyən belə bir başdan böyük yalanı da, əlbəttə ki, elə Ə.Kərimli kimi qondarma müxalifət "liderləri" iddia edə bilərdi məncə...

## Seçkilərə az qaldı, lap az...

Deməli, bu "adam" oturub Bakıda və Avropadakı milli xainlərin küçələrdə, tualetlərdə, zibil urnaları qarşısında çıxardıqları siyasi meymunluqlarına çəpik çalır, onları az qala "milli qəhrəman" elan edir, yəni heç bir insani keyfiyyətlərə sığmayan hərəkətləri ilə "gündəmə çıxan" orduxanlar, məhəmmədlər, turallar, daha nə bilim kimlər-kimlər ən murdar hərəkətlərə rəvac verirlər, bu da Bakıda oturub, iddia edir ki, "hakimiyyət xalqı təhqir edir"-filan...

Əslində, buna siyasi həyasızlıq deyirlər və bu cür həyasızlıqlar Ə.Kərimli tərəfindən çox nümayiş olunub. Sadəcə, bu da növbətisidir. Daha mitinqinə adam yığmaq üçün, bilmir ki, hansı hoqqabazlıqlardan çıxsın, hansı polyaçi tamaşalarını göstərsin.

Hə, onu da deyim ki, Kərimlinin xain dostu Emin Hüseynov da sosial şəbəkəyə çıxıb və gecənin bir aləmi "seçkilərə az qaldı, lap az" deyərək, guya hələ də ümidinin üzülmədiyini demək istəyib. Amma ümidləri nəinki sönüb, hətta çıraqları belə paramparça olub. Onlar bunun belə nəticələnəcəyinin fərqinə varmalıydılar. Bilməliydilər ki, oynadıqları oyunbazlıqları nəticəsiz qalacaq və məğlubiyyət düz yaxalarından yapışacaq. Deyəsən, məğlubiyyət qoxusu yavaş-yavaş burunlarının iybilmə damarlarını yerindən oynatmağa başladıb...

---

# "Xaricdəki muzdlu qrup özünü Azərbaycanın düşmənlərinə könüllü surətdə təslim edib"

***Müxalifətin xaricdəki söyüş qrupu sosial şəbəkələrdə Azərbaycan hakimiyyətinə, ayrı-ayrı insanlara qarşı növbəti ittihamlar, şər və böhtanlar səsləndirir, statuslar paylaşırlar. Söz yox ki, qondarma sosial şəbəkə fəallarını yaşadıqları ölkələrin hansısa qaranlıq dairələri bu kimi əməllərə təhrik edirlər.***

## Millət vəkili Azər Badamov: "Azərbaycanın uğurları müəyyən dairələri ciddi narahat edir"



- Seçkiqabağı xaricdən sosial şəbəkələr vasitəsi ilə müəyyən şəxslərin ünvanlarına ittihamların artması gözlənilən-dir. Çünki bu gün güclənən və inkişaf edən, sabitlik məkanına çevrilmiş Azərbaycanın uğurları müəyyən dairələri ciddi narahat edir. Bəzi dairələr var ki, ölkəmizə qısqanclıqla yanaşır və hər bir fürsətdən istifadə edərək, ölkəmizin imicinə ləkə yaxmaq istəyirlər. Onlar müəyyən adamlar tapıb, onların maliyyələşməsini təşkil edirlər. Belə adamlar xaricdə sığınaraq, öz dolanışıq mənbəyini həmin dairələrdən aldıqları vəsaitlər üzərində quraraq, sosial şəbəkələrdə müəyyən tapşırıqların icraçılarına çevrilirlər. Onlar ölkəmizdə təmin olunmuş söz azadlığı və mətbuat azadlığından maksimum dərəcədə sui-istifadə edərək, öz fəaliyyətlərini qurublar. Amma bu, heç də o demək deyil ki, onların ittihamları həqiqəti əks etdirir. Bu ittihamların yalan olduğunu Azərbaycan hər bir vətəndaşı çox yaxşı bilir və belə aldadıcı ittihamları qətiyyətlə rədd edir. Ölkəmizdə keçiriləcək prezident seçkiləri yüksək səviyyədə təşkil olunur və hər bir Azərbaycan vətəndaşı aprelin 11-də demokratik şəraitdə öz prezidentini seçəcəkdir. Artıq hamı bilir ki, kimə səs verilməlidir, kimin arxasınca getməlidir və Azərbaycanın işıqlı gələcəyinin qurucusu kim ola bilər. Təbii ki, bu, Cənab İlham Əliyevdir və hamı "İlhamla irəli" getmək arzusundadır. Qaldı ki bəd niyyətli dairələr və onların xidmətçilərinə, onlar da seçki prosesi başa çatandan sonra sakitləşəcəklər.

## Siyasi şərhçi Azər Həsrət: "Ucuzluqda onlardan ən aşağı səviyyəli işlər üçün istifadə edilir"



- Xaricdəki muzdlu qrup özünü Azərbaycanın düşmənlərinə könüllü surətdə təslim edib. Bu da səbəbsiz deyil. İş ondadır ki, onlar keyfiyyətsiz insanlar olduqları üçün Azərbaycandan siyasi mühacir adı altında qaçıblar. Getdikləri ölkələrdə bunların əsl mahiyyəti tez bir zamanda aşkar edildiyi üçün status ala bilməyiblər. Belə bir durumda da özlərini ən ucuz qiymətə satışa çıxararaq, satılıblar. Təbii ki, bu ucuzluqda onlardan ən aşağı səviyyəli işlər üçün istifadə edilir. Nahaqdan onlara "iaşə (zibillik) müxalifəti" deyilmir ki.

***GÜLYANƏ***

# Azərbaycanda seçkilərin təkmilləşdirilməsi və insan hüqüqları

***Azərbaycanda seçkilərin təkmilləşdirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Sərəncam vermişdir. Sərəncamda deyilir:***

"Azərbaycanın bütün şəhər və rayonlarında vətəndaşların sərbəst toplaşmaq hüququnun həyata keçirilməsini təmin etmək məqsədi ilə müvafiq yerlər ayrılmışdır ki, bu da deputatlığa namizədlərin seçicilərlə görüşlərinin keçirilməsi üçün münasib şərait yaratmışdır. Təsisçiləri dövlət orqanları olan və ya dövlət büdcəsindən maliyyələşən teleradio təşkilatları, seçki qanunvericiliyinə uyğun olaraq, 60-dan çox dairədə namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına bərabər şəkildə pulsuz efir vaxtı ayırmışlar və bu efır vaxtından seçki təşviqatı üçün aktiv istifadə edilir. Qeyd etmək lazımdır ki, dövlət teleradio kanallarından məqsəd üçün ayrılan efir vaxtının həcmi əvvəlki seçkilərlə müqayisədə iki dəfə artıqdır. Dövlət və özəl teleradio təşkilatlarında ödənişli efir vaxtından geniş istifadə edilir. Seçki praktikasında, ilk dəfə olaraq, seçici vəsiqələrindən islifadə edilir və bu iş, digər ölkələrin təcrübəsi də nəzərə alınmaqla, təkmilləşdirilməlidir. Onu da qeyd etmək lazımdır ki, bu il Azərbaycan üzrə bütün seçicilərin siyahısı internetdə yerləşdirilmişdir.

Bununla yanaşı, bəzi problemlərin həll olunmaması, Seçki Məcəlləsinin bir sıra tələblərinin pozulması halları haqqında daxil olan məlumatlar narahatlıq doğurmaya bilməz. Vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsində, seçici vəsiqələrinin paylanmasında və seçici siyahılarının tərtib edilməsində yol verilən nöqsanlar haqqında, həmçinin, bəzi icra hakimiyyəti orqanlarının seçki prosesinə qanunsuz müdaxiləsi, inzibati resurslardan istifadə olunması, ayrı-ayrı namizədlər tərəfindən seçkiqabağı təşviqat zamanı qanunla qadağan olunmuş üsullara əl atılması və sair faktlarına dair şikayətlər daxil olmaqdadır.

Seçki praktikasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin səmərəliliyini artırmaq, Seçki Məcəlləsinin müddəalarının seçkilərə hazırlıq dövründə və səsvermə günü tam və şərtsiz həyata keçirilməsi, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Milli Məclisinə təklif edilsin ki, "Qeyri-hökumət təşkilatları (İctimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasi Qanunundan nizamnamə kapitalında xarici fıziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasında keçirilən prezident, Milli Məclis və bələdiyyə seçkilərini müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin.

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına tövsiyə edilsin ki, seçici vəsiqələrinin paylanması və seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar yaranmış problemləri nəzərə alaraq, seçicilərin səsvermə günü seçki bülletenlərini aldıqları zaman barmaqların gözə görünməyən mürəkkəblə işarələnməsi qaydalarına dair müvafiq təlimatı qısa müddətdə hazırlayıb Mərkəzi Seçki Komissiyasının müzakirəsinə çıxarsın; seçki komissiyalarına daxil olan seçki huquqlarının pozulması haqqında şikayətlərə baxılma qaydalarına dair təlimatı qısa müddətdə hazırlayıb təsdiq etsin;

- deputatlığa namizədlərin seçkiqabağı təşviqat kampaniyası zamanı yol verdikləri qanun pozuntularına dair qətiyyətli mövqe bildirsin, qanunla ona verilmiş inzibati tənbeh səlahiyyətindən tam və dönmədən istifadə etsin;

- məntəqə-seçki komissiyalarında seçicilərin ünvanlarının tam göstərildiyi seçici siyahıları ilə bütün maraqlı şəxslərin tanış olmaları üçün müvafiq şərait yaradılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tapşırılsın ki, şəxsiyyəti təsdiq edən heç bir sənədi olmayan vətəndaşlara seçki günündək şəxsiyyət vəsiqələrinin verilməsini təmin etsin.

4. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, "Azərenerji" Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyəti orqanları dairə və məntəqə seçki komissiyalarının yerləşdiyi binaların rabitə və elektrik enerjisi ilə fasiləsiz təmin olunmaları üçün zəruri tədbirlər görsünlər.

5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq siyasi partiyalara, siyasi partiyaların bloklarına və deputatlığa namizədlərə müəyyən olunmuş yerlərdə kütləvi tədbirlər və seçkiqabağı təşviqatın keçirilməsi üçün bütün zəruri şəraiti yaratsınlar.

6. Azərbaycan Respublikasının baş prokuroruna tövsiyə edilsin ki, seçki günü vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar Mərkəzi Seçki Komissiyasından daxil olan cinayət tərkibli olması ehtimal edilən məlumatları təcili araşdırsın və cinayət əməlləri törətməkdə təqsirli bilinən şəxslərin məsuliyyətə cəlb edilməsini təmin etsin.

7. Aidiyyəti dövlət orqanları "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 11 may tarixli Sərəncamında nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar müvafiq hesabatları beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

Məlumat üçün deyək ki, respublikamızda azad və ədalətli seçkilərin əsası 1993-cü ildə qoyulub. Belə ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə bir müddət siyasi və iqtisadi sahədə böhran yaşansa da, 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün təhlükələr sovuşdu. Azərbaycan parçalanma təhlükəsindən qurtuldu, hüquqi və demokratik dövlət quruculuğunun əsası qoyuldu. Bu proses bu gün də uğurla davam etdirilir. İndi dünya birliyinin tam hüquqlu üzvü olaraq müstəqil xarici siyasət yeridən Azərbaycan Vətəndaş Cəmiyyətinin qurulması, insan hüquqlarının qorunması baxımından qanunvericilik bazasını demokratik meyarlara uyğun yeniləşdirir.

Ölkəmiz suverenliyini əldə etdikdən sonra əxz etdiyi ən böyük demokratik dəyərlərdən biri də müasir standartlara cavab verən seçki texnologiyalarının tətbiqi, azad, şəffaf və demokratik seçkilər keçirilməsinin təmin edilməsidir. Azərbaycan xalqı totalitar rejimə xas qayda-qanunlardan qurtularaq, demokratiyaya səs verdi. 1993-cü ilin oktyabrında keçirilən prezident seçkilərində xalqımız bütün dünyaya sübut etdi ki, demokratik və şəffaf seçkilər təşkil etməyə qadirdir.

Bu günə qədər ölkəmizdə bir neçə dəfə prezident, parlament və bələdiyyə seçkiləri keçirilib. Hər bir seçkidə şəffaflığın təmin olunması məqsədilə atılan bütün addımlar həm ölkə, həm də beynəlxalq ictimaiyyət tərəfindən dərin rəğbət hissi ilə qarşılanıb. Seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsini təmin etmək üçün aparılan bütün tədbirlər öz bəhrəsini vermiş, beynəlxalq müşahidəçilər nəticələrdən razı qalmışlar. Ortaya çıxan problemlər isə aidiyyəti orqanlar tərəfindən hüquqi qaydada öz həllini tapmışdır.

Robert Dahl "Demokratiya haqqında" əsərində yazırdı: "Əgər biz siyasi hüquq bərabərliyinin zəruriliyini qəbul ediriksə, onda hər bir vətəndaşın bərabər və real səsvermə imkanı olmalıdır, özü də bütün səslər bərabər qüvvəyə malik olmalıdır. Səslərin bərabərliyinə riayət olunması üçün, təbii ki, seçkilər azad və ədaləli keçməlidir. "Azad seçki" o deməkdir ki, vətəndaş səs verməyə repressiyalardan ehtiyat etmədən gedə bilər; ədalətli seçki isə hər bir səsin bərabər "çəkiyə" malik olması deməkdir. Lakin azad və ədalətli seçki ilə iş bitmir. Təsəvvür edin ki, seçilmiş insanlara səlahiyyətlər 20 il müddətinə verilsə, necə bir vəziyyət yarana bilər! Əgər vətəndaşlar hökumətin fəaliyyəti üzərində qəti nəzarət qurmaq istəyirlərsə, seçkilər həm də mütəmadi olmalıdır. "Necə etmək olar ki, seçkilər azad və ədalətli keçirilsin" sualına cavab vermək o qədər də asan deyil. XIX əsrin sonlarında əl qaldırmaqla açıq səsverməni tədricən bülletenlər vasitəsilə gizli səsvermə əvəz etməyə başladı. Açıq səsvermənin bu gün də müəyyən qədər tərəfdarı olmasına baxmayaraq, gizli səsvermə artıq hamı tərəfindən qəbul edilmiş normaya çevrilmişdir: hər hansı bir ölkədə bu norma pozulmuş olarsa, deməli, orada azad və ədalətli seçkilər yoxdur.

Bununla belə, seçkilərin hansı növünün "ədalətli" anlayışına daha çox cavab verməsi haqqında mübahisələr səngimək bilmir.

Hansı seçki sistemi daha ədalətlidir: demokratik ölkələrin əksəriyyətində tətbiq edilən proporsional nümayəndəlik (PN) sistemi, ya Böyük Britaniyada və Amerika Birləşmiş Ştatlarında istifadə olunan "hamısı qalibə çatır (HQÇ) (engil. - First-Past-the-Post) sistemi? 10-cu fəsildə yenidən bu məsələyə qayıdarkən, görəcəyik ki, hər iki sistemin xeyrinə çoxsaylı kəsərli sübutlar mövcuddur. Onu da qeyd edək ki, müxtəlif seçki sistemləri haqqında mübahisələrdə ədalətli seçkilərin zəruriliyi məsələsi müzakirəyə qoyulmur, o, aprior qaydada qəbul edilir. Bu və ya digər ağlabatan məqsədə çatmaq yolu isə - sırf texniki məsələdir.

Seçkilər hansı mütəmadiliklə keçirilməlidir? XIX əsrdə demokratik ölkələrdə formalaşmış praktikaya əsasən, təxminən belə fərz edə bilərik ki, qanunverici hakimiyyət orqanlarına seçkilər o zaman çox mütəmadi sayılır ki, hər il keçirilmiş olsun və o zaman az mütəmadi sayılır ki, seçkilər arasında müddətlər beş ildən çox olmuş olsun və tamamilə təbiidir ki, demokratiya tərəfdarları arasında mövcud ölkədə vəzifəli şəxslərin səlahiyyət müddətləri barədə və idarələrin mövcud növlərindən və formalaşmış ənənədən asılı olaraq, bu müddətləri necə dəyişdirmək barədə müəyyən fikir ayrılığı ola bilər. Əsas məsələ ondadır ki, seçkilər yetərincə mütəmadiliklə keçirilmədikdə, vətəndaşlar öz seçdikləri məmurların fəaliyyəti üzərində nəzarəti xeyli dərəcədə itirmiş olurlar".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 28 mart

# Cənab İlham Əliyevlə zəfərlərə doğru addımlayaq!





***Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağdam rayon şöbəsi Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Quzanlı qəsəbə Mədəniyyət Evində mədəniyyət işçiləri ilə görüş keçirilib.***

Seçicilər qarşısında çıxış edən YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev ölkə Prezidenti İlham Əliyevin son 15 ildə Azərbaycanın iqtisadi, siyasi, mədəni və digər sahələrdə əldə etdiyi uğurlardan, beynəlxalq aləmdə qazandığı nailiyyətlərdən seçicilərə geniş və hərtərəfli məlumat verib.

"Bu zəfərlərə doğru gəlin birlikdə addımlayaq! Azərbaycanı Cənab İlham Əliyevin müdrik siyasəti ilə qələbələrdən-qələbələrə aparaq!" - deyən rayon təşkilatı sədri əldə olunan nailiyyətlərin davam etdirilməsi üçün seçiciləri seçki prosesində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə rayon təbliğat qrupunun üzvləri Hüseyn Bayramov, Şahin Qasımov, Milli Məclisin deputatı, YAP Mərkəzi Seçki Qərargahının təbliğat qrupunun üzvü Bəxtiyar Sadıqov və Milli Məclisin deputatı, professor Bəxtiyar Əliyev çıxış edərək, bildiriblər ki, Azərbaycan Cənubi Qafqazın ən güclü dövlətidir. İnkişafın Azərbaycan modelinin mövcudluğu beynəlxalq səviyyədə dəstəklənir. Sağlam düşüncəli ictimai rəy bu tərəqqinin, uğurların, qələbənin sayını çoxaltmaq və davamlılığına nail olmaq istəyir. Qeyd olunub ki, İlham Əliyev siyasəti hər zaman bəyənilib, dəstəklənib, bundan sonra da dəstəklənəcək. Çıxış edənlər bildiriblər ki, 11 apreldə bu reallıq bir daha öz təsdiqini tapacaqdır.

***Zümrüd BAYRAMOVA***




# Cənab İlham Əliyevlə uğurlu sabahımıza doğru!




***Ağcabədi şəhər stadionunda Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin təşkilatçılığı ilə prezidentliyə namizəd İlham Heydər oğlu Əliyevin namizədliyinin müdafiəsi kampaniyası çərçivəsində möhtəşəm mitinq-konsert keçirilib.***

Tədbiri YAP Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin sədri Rövşən Əhmədov açaraq, qeyd edib ki, bu gün hər bir Ağcabədi sakini, bu möhtəşəm toplantıya gələnlər üçün əlamətdardır: "Bunu sizin qəlbinizdəki inamdan, gözünüzdəki sevincdən duymaq olur. Böyük ümidləriniz, sevinciniz və alqışlarınız hər birimiz üçün əziz olan, müdrik bir insana - Cənab İlham Əliyevə olan sonsuz məhəbbətin, ehtiramın və sədaqətin ifadəsidir."



R.Əhmədov bildirib ki, Ulu Öndər Heydər Əliyevin bəşəri ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanı sosial-iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkəyə çevirməklə bərabər, beynəlxalq aləmdə nüfuzumuzu yüksəldib. Məhz buna görə də, Cənab İlham Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında əvəzolunmaz fəaliyyəti, hesabagəlməz xidmətləri nəzərə alınaraq, Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının prezidentliyinə namizədliyi irəli sürülüb və sözsüz ki, bu təklif bütün xalqın, dövlətimizi azad və xoşbəxt görmək istəyən hər bir kəsin ürəyindəndir. Rayon təşkilatının sədri ağcabədililəri 11 aprel tarixində keçiriləcək prezident sekçkilərində fəal olmağa, Azərbaycanın işıqlı gələcəyinə - Cənab İlham Əliyev səs verməyə çağırdı.



Mitinq - konsertdə YAP Mərkəzi Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin təbliğatçısı Qarabağ müharibəsi əlili Ramil Nağıyev, Milli Məclisin deputatları Tahir Rzayev, Bəxtiyar Əliyev və Bəxtiyar Sadıqov çıxış edərək, Cənab İlham Əliyevin rəhbərliyi altında son 15 il ərzində həyata keçirilmiş işlər və qazanılmış uğurlu nailiyyətlər barədə öz fikirlərini bölüşüblər və seçiciləri 11 aprel 2018-ci il tarixdə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

Tədbir Azərbaycanın görkəmli incəsənət xadimlərinin iştirakı ilə geniş konsert proqramı ilə davam etdirilib.



## ELAN

2017-ci ildə "Təmir-Tikinti Az NY" QSC tərəfindən 1.604.555 manat məbləğində tikinti-quraşdırma işləri görülmüş və qeyri-yaşayış sahəsinin icarəsindən 24000 manat cəmisi 1.628.555 manat daxil olub. İl ərzində cəmiyyətin xərcləri 1.462.541 manat təşkil etmişdir. İl 121.216 manat mənfəətlə başa vurulub. Bundan mənfəət vergisi 24.243,2 manat xalis mənfəət isə 96.972,8 manat təşkil edir.

**"Təmir-Tikinti Az NY" QSC-nin idarə heyətinin sədri**

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Əliyeva Səbinə Cəlil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat-informatika ixtisası üzrə IV kurs tələbəsi Şivəxanova Nərmin Zahir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə sosial-psixoloji xidmət təhsil ixtisası üzrə tələbəsi Vəliyeva Aytəkin Hüseyn qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Cavadova Jalə İsmi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**